www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-25 sentyabr 2017-ci il Şənbə № 196 (6810) Qiymәti 60 qәpik

**Xəbər**

## Erməni deputatlar Bakıda etirazla qarşılandı

yazısı səh.2-də

**Gündəm**

### “26 -lar”ın qəbrini ziyarət edənlər barədə yeni faktlar -qalmaqal böyüyür



**Sabir Rüstəmxanlı:** “Ziyarətə gedənlər Yer üzünün ən şərəfsiz adamlarıdır...”

yazısı səh.13-də

### Şeyxin idarəsinin ləğvi tələbinə reaksiyalar gəldi

yazısı səh.6-da

### Azərbaycanın 666 düşməni - Həmid Herisçinin yazısı

yazısı səh.4-də

### Lapşinin növbəti yaramazlığı: Azərbaycanı Avropa Məhkəməsinə verir, şansı isə yoxdur...

yazısı səh.9-da

### İstintaqa cəlb olunan təkcə Şəmsəddin Hacıyev olmayacaq

yazısı səh.10-da

### Ali məktəblərə yeni qəbul qaydaları - dəyişən tək qaydalarmı olacaq?

yazısı səh.14-də

### ÜAK-a görə Rusiyaya qarşı cavab addımı atmalıyıqmı? - ekspert rəyi

yazısı səh.9-da

### Beynəlxalq Bankda “unique” əməliyyatı

yazısı səh.14-də

*Levon Ter-Petrosyan:*

### “Ermənistan adamların yaşamadığı otlağa çevriləcək...”

yazısı səh.11-də

### Sağ ikən məzara girənlərin hekayəti

yazısı səh.15-də

### Yaxın Şərqi silkələyəcək kritik referenduma iki gün qaldı

yazısı səh.12-də

## Sabiq vitse-premyerin başı dərddə

# “AST TELMAN”I KİMİN ƏLƏ VERDİYİ BİLİNDİ - ABBAS ABBASOV İSTİNTAQA CƏLB EDİLƏCƏK

15 il Telman İsmayılovun köməkçisi işləmiş Sergey Qavryuşin istintaqa nələr deyib?; “AST Telman”ın və qardaşlarının cinayət işlərinin xronikası A.Abbasovun məhz şirkətdə işlədiyi dövrə təsadüf edir və onu da...




yazısı səh.5-də

## İki stulda “oturan” Sərkisyanın tək cəzası - “Qarabağı ABŞ qaytara bilər”

Ərdoğan-Putin görüşü ərəfəsində İrəvanın artan təlaşının əsası motivi; **rusiyalı tanınmış analitik:** “Moskva şansları əldən verir...”

yazısı səh.8-də



### Akif Çovdarov bəraətlə azadlığa çıxır - iddia

yazısı səh.5-də



*İqbal Ağazadə:*

### “Belə bolşevik yanaşmasının tərəfdarı deyiləm”

yazısı səh.7-də



### Professor İlham Rəhimova Beynəlxalq Mahmud Kaşqari mükafatı verildi

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017




## General mitinqə görə təşkilatçılara xəbərdarlıq etdi

### Bu gün Milli Şura mitinq keçirəcək

**Bu gün Milli Şura mitinq keçirəcək. Saat 15.00-dan 17.00-dək "İnşaatçılar" metrostansiyası yaxınlığındakı keçmiş "Məhsul" stadionunda keçirilməsi planlaşdırılan mitinqə Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) razılıq verib. Milli Şuranın rəhbərliyinə daxil olan şəxslər artıq bir neçə gündür ki, sosial şəbəkə vasitəsilə mitinqə çağırış edirlər.**

Qeyd edək ki, Milli Şurada AXCP aparıcı qüvvə kimi çıxış edir və keçirdikləri mitinqlərin də iştirakçıları əsasən bu partiyanın üzvlərindən ibarət olur. Milli Şura mitinqdə iştirak üçün heç bir siyasi partiyaya müraciət, təklif etməyib. Qurumun üzvü olmayan müxalifət partiyalarının əksəriyyəti bunu əsas göstərərək 23 sentyabr mitinqinə partiya şəklində qatılmayacaqlarını bəyan eləyiblər. Partiya üzvlərinin fərdi şəkildə iştirakına isə qadağa qoymadıqlarını bildiriblər. Milli Şuraya daxil olmayan tanınmış müxalifət liderlərindən yalnız AXP sədri Pənah Hüseyn bildirib ki, 23 sentyabrda Bakıda olsa mitinqə fərdi şəkildə qatılacaq. Bəzi partiya sədrləri isə müxalifətin ayrı-ayrılıqda deyil, birgə mitinqlərinin tərəfdarı olduqlarını bildiriblər.

Sentyabrın 22-də isə Bakı şəhər Baş Polis İdarəsi (BŞBPİ) Milli Şuranın sentyabrın 23-də keçirəcəyi mitinqlə bağlı xəbərdarlıq edib. **İdarənin rəis müavini, polis general-mayoru Səhlab Bağırov** APA-ya açıqlamasında Milli Şuranın Bakı şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqində hər hansı təxribata imkan verilməyəcəyini deyib: "Biz mitinqin təşkilatçılarını Bakı şəhər Baş Polis İdarəsinə dəvət edərək onlara xəbərdarlıq etmişik. Mitinqdə aksiyanın keçirilməsi üçün Bakı şəhər İcra Hakimiyyətinə ünvanlanan müraciətdə qeyd olunan şüarlardan başqa şüarların səslənməsinə, həmçinin iğtişaşa və qarşıdurmaya səbəb ola biləcək hər hansı addımın atılmasına imkan verilməyəcək. Əks təqdirdə, mitinqin təşkilatçıları və günahkarlar qanun çərçivəsində cəzalandırılacaqlar".

❑ **E.SEYİDAĞA**

## Yanğında zərərçəkənlər xilas edildi

**Sentyabrın 22-də saat 10 radələrində Yasamal rayonundakı yataqxanaların birinin 3-cü mərtəbəsində yanğın baş verib. Dərhal Fövqəladə Hallar Nazirliyinin aidiyyatı qurumları və polis əməkdaşları hadisə yerinə gəliblər. Yataqxanadakı sakinlərin yanğından xilas edilməsi məqsədi ilə təxirəsalınmaz tədbirlər görülüb.**

Bina sakinlərinin təxliyəsi zamanı yanğınsöndürənlərlə birlikdə olan Əlahiddə Çevik Polis Alayının manqa komandiri, polis baş serjantı Tural Əliyev də fəallıq göstərib. Lakin o tüstüdən zəhərlənərək 1 saylı Şəhər Kliniki Xəstəxanasının Toksikologiya şöbəsinə yerləşdirilib. Polis baş serjantı T.Əliyevə tibbi yardım göstərilib. Həmkarımızın vəziyyəti normaldır, hal hazırda həmin xəstəxanada müalicəsi davam etdirilir.

❑ **Xəyalə MƏMMƏDOVA,**
**DİN Mətbuat Xidmətinin əməkdaşı**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Erməni deputatların Bakıya gəlməsinə qarşı aksiya

**Qarabağ Azadlıq Təşkilatının (QAT) bir qrup üzvü erməni deputatların Bakıya səfərinə etiraz olaraq aksiya keçirib. APA-nın xəbərinə görə, aksiya iştirakçıları ermənilərin də qatıldığı tədbirin keçirildiyi Milli Məclisin qarşısında toplaşaraq, "Rədd olsun işğalçı Ermənistan nümayəndələri!", "Erməniləri dəvət edənlərə ar olsun!", "Ermənilər Bakını dərhal tərk etsinlər!" və digər şüarlar səsləndirib, plakatlar qaldırıblar.**




Aksiya iştirakçıları erməni bayrağını ayaqları altına alaraq tapdalayıblar, polislər bayrağı yandırmağa imkan verməyiblər. Polislər aksiyanın qarşısını alaraq, iştirakçıları ərazidən zorla uzaqlaşdırıblar.

**Aksiya iştirakçılarının yaydığı bəyanatda bildirilir ki, erməni deputatların Bakıda keçirilən Avronest Parlament Assambleyasının iclasına dəvət olunmaları, onların iştirakına şərait yaradılması şəhidlərimizin ruhlarına təhqir, bütün Azərbaycan xalqına xəyanətdir:** "Nə qədər ki, torpaqlarımız işğal altında, qız gəlinlərimiz əsirlikdə, Dilqəm Əsgərov və Şahbaz Quliyev kimi soydaşlarımız girovluqdadır, ermənilərin hər hansı ad altında Azərbaycana, paytaxtımıza gətirilməsi yolverilməzdir. Bu praktikaya bir dəfəlik son qoyulmalıdır. Biz işğalçı Ermənistan rejiminin təmsilçilərini, bu həyasız deputatların dərhal konfransdan çıxarılmasını, onların Azərbaycandan dərhal getmələrini tələb edirik".



## Abid Şərifov "cəzalanacaq" dedi, Akif Əli isə...

**Nazirlər Kabinetinin yeni struktur dəyişikliyinə əsasən bəzi şöbə müdirləri başqaları ilə əvəzlənsə də, bu yaxınlarda qalmaqallı açıqlamaları ilə gündəmə gələn Akif Əli vəzifəsində qalıb.**

Axar.az xəbər verir ki, dünən "Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) Aparatının strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Prezidentinin 2017-ci il 23 avqust tarixli Fərmanına əsasən həyata keçirilən struktur islahatları başa çatıb.

Dəyişikliyə görə, bir müddət öncə dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə haqqında "fındıqbaş", "balqabaqbaş" ifadələrini işlədən və Baş nazirin müavini Abid Şərifovun cəzalandırılacağını söylədiyi Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli vəzifəsini icra etməyə davam edəcək.



## Bu gün Bakıda 32° isti olacaq

**Sentyabrın 23-də Bakı və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Səhər yarımadanın bəzi yerlərində zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. ETSN-dən verilən məlumata görə, havanın temperaturunun gecə 18-22° isti, gündüz 29-34° isti, Bakıda gecə 19-21°, gündüz 30-32° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 761 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 75-85 %, gündüz 30-35 % olacaq.**

Tibbi-meteoroloji proqnoza əsasən, sentyabrın 23-də Abşeron yarımadasında temperaturun bir qədər yüksək olması fonunda rütubətli hava şəraiti meteohəssas insanlarda narahatlıq hissi yaratsa da, 24-də mülayim xəzri küləyinin əsməsi müsbət amildir.

Azərbaycanın şimal rayonlarından başlayaraq bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Səhər arabir duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 29-34° isti, dağlarda gecə 10-15°, gündüz 19-24° isti olacağı gözlənilir.

**Sentyabrın 23-ü gündüzdən 26-dək bəzi rayonlarda hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.**

## Kim Çen In müğənniləri zenit topu ilə güllələyib, məktəbli qızları seks köləsinə çevirib

**"The Independent" yazır ki, Şimali Koreyadan qaçaq düşmüş bir nəfər Kim Çen Inın 11 musiqiçini zenit topu ilə güllələdiyini və ölkə məktəblərindən seks kölələrinin toplanmasını əmr etdiyini deyib.**

26 yaşlı qaçaq qadın deyib ki, öz sülaləsinin üçüncü nəsil diktatoru olan Kim Qərb kəşfiyyatçılarının nəzərlərindən gizlənmək üçün dəbdəbəli məxfi villalara malikdir.

Qaçaq qadın bunu da bildirib ki, o Pxenyanın hərbi akademiyasında musiqiçilərin topa qoyulub atılmasına tamaşa edən 10 min nəfərdən biri olub. Bu musiqiçilər pornoqrafik materialları yaymaqda ittiham edilirdilər.

Qaçaq qadın deyib ki, musiqçilər toplarla güllələndikdən sonra onların cəsədləri üzərindən tanklar sürülüb.Bu qadının əvvəlcə Çinə, oradan isə Cənubi Koreyaya qaçdığı deyilir. Qadının atası Şimali Koreya ordusunda yüksək rütbəli zabit idi və buna görə də o, Kim-in yaxın çevrəsinə kifayət qədər yaxşı bələddir.

Qadın bunu da deyib ki, Şimali Koreya diktatoru onun üçün orta məktəblərdən seks kölələrinin gətirilməsini əmr edir. "Onlar ən gözəl qızları seçirlər, ələxüsus da onların ayaqlarının gözəl olmasına fikir verirlər"- qaçqın koreyalı bildirib.

Nottingham Trent Universitetinin Asiya üzrə eksperti professor Kolin Alexander Şimali Koreyada quldarlıq elementlərinin olduğunu təsdiq edib. O bildirib ki, orada əmək düşərgələrinin və seks qullarının böyük şəbəkələri var.

Bu həftə Human Rights Watch təşkilatı BMT-ni Şimali Koreyada uşaqların cinsi təcavüzə məruz qalmasının qarşısını almağa çağırıb. Lakin bütün bu şahid ifadələrinə baxmayaraq professor Alexander deyib ki, Şimali Koreyadan olan qaçağın təbliğat aləti olduğuna inanır.

Alim düşünür ki, Şimali Koreya hakimiyyətindən kimlərsə sözü gedən qadının qaçaq düşməsinə imkan yaradıblar. Başqa sözlərlə onlar diktator haqqında həqiqətlərin ətraf aləmə çıxmasını istəyiblər (BBC).

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

# Professor İlham Rəhimova Beynəlxalq Mahmud Kaşqari mükafatı verildi

**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan klubu"nda Mahmud Kaşqari adına Beynəlxalq Fondun Mükafat Komissiyası tərəfindən verilən "Beynəlxalq Mahmud Kaşqari" mükafatının növbəti təqdimetmə mərasimi keçirilib.**



Musavat.com-un məlumatına görə, tədbirdə ilk olaraq çıxış edən Beynəlxalq Mahmud Kaşqari Fondunun baş katibi Elxan Zal bildirib ki, Türk dünyasına xidmətə görə verilən bu mükafat 2007-ci ildə təsis edilib və Mahmud Kaşqari adına Beynəlxalq Fondun Mükafat Komissiyası tərəfindən verilir: "Bu mükafatın verilməsində əsas məqsəd Türk birliyinin, Türk mədəniyyətinin inkişafı ideyasına dəstək verməkdir. "Beynəlxalq Mahmud Kaşqari" mükafatı artıq 10 ildir ki, verilir və Türk dünyasının fikir adamları, ziyalıları tərəfindən yüksək qiymətləndirilir. Bu vaxta qədər mükafatçılar sırasında Süleyman Dəmirəl (Türkiyə), Oljas Suleymenov (Qazaxıstan) Sabit Dosanov (Qazaxıstan), Omar Sultanov (Qırğısıztan), Ramiz Əskər, Abel Məhərrəmov, Sabir Rüstəmxanlı, Hikmət Babaoğlu kimi tanınmış şəxslər var. "Beynəlxalq Mahmud Kaşqari" mükafatının növbəti laureatları yalnız Türk dünyasında deyil, ondan çox-çox uzaqlarda tanınan iki böyük şəxsiyyət, Qara dəniz və Xəzər Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti, professor İlham Məmmədhəsən oğlu Rəhimov və Xəzər Regionu Ölkələri Beynəlxalq Fondunun prezidenti, xalq yazıçısı Çingiz Abdullayevdir".









Daha sonra mükafatların təqdimat mərasimi başlayıb. E.Zal ilk olaraq mükafatı professor İlham Rəhimova təqdim edib. O bildirib ki, Rusiya-Azərbaycan, Türkiyə-Azərbaycan münasibətlərinin dərinləşməsində göstərdiyi xidmətlərə görə İlham Rəhimov "Beynəlxalq Mahmud Kaşqari" mükafatına layiq görülüb.

**İlham Rəhimov çıxış edərək mükafat üçün öz təşəkkürünü bildirib. Bir çox ölkələrdə mükafatlara layiq görüldüyünü deyən İlham Rəhimov, "Beynəlxalq Mahmud Kaşqari" mükafatının Azərbaycanda aldığı ilk mükafat olduğunu vurğulayıb:** "Azərbaycanda birinci dəfədir ki, mükafata layiq görülürəm. Kaşqari mükafatı mənim üçün ən dəyərli mükafatdır. Çünki bu, mənə vətənimdə verilib".

**Daha sonra isə mükafat Çingiz Abdullayevə təqdim olunub. Yazıçı çıxış edərək, mükafat üçün öz təşəkkürünü bildirib:** "İnandırım sizi ki, 3 gündür xahiş edirdim ki, bu mükafatı mənə verməyin. Çünki hesab edirəm ki, bu, böyük mükafatdır və düşünürdüm ki, başqa yazıçılara versinlər. Çünki mənim aldığım mükafatlar çoxdur. Doğrudan da mən də hesab edirəm ki, Azərbaycanda, öz vətənində sənə qiymət veriləndə bu, hər şeydən üstün olur. Fəxr edirəm ki, bu mükafatı alanlar siyahısındayam".

Onun ardınca çıxış edən **xalq şairi Sabir Rüstəmxanlı** mükafat alanları təbrik edərək, onların Azərbaycanla bağlı xidmətlərindən danışıb: "Görkəmli yazıçımız Çingiz Abdullayevi, Azərbaycanda, Rusiyada hüquqla bağlı çox dəyərli əsərləri ilə tanınan, hüquq ədəbiyyatı sahəsində bir hadisəyə dönən İlham Rəhimovu da təbrik edirəm. Yazıçılar Birliyinin verdiyi mükafat çox ciddi bir hadisədir. İndi mükafatı az qala qəzet, jurnal buraxmağa döndəriblər. Ancaq bu, sıradan bir mükafat deyil. Məncə, indiyə qədər bu mükafat layiqli adamlara verilib. Bu gün də son dərəcədə dəyərli iki şəxsə verilir. Çingiz Abdullayevin gözəl tərəfi odur ki, rusca yazsa da bütün düşüncəsi Azərbaycanlıdır. O, getdikcə daha çox Azərbaycana bağlanır və bizim mədəniyyətimizin daşıcısına çevrilir. Bu gün bizim dünya ilə bağlı münasibətlərimiz şəxslərdən asılıdır. Millətin özü də şəxslərdən formalaşıb. Güclü şəxsiyyət varsa, güclü millət də var. Ona görə də millətlərin də münasibətlərini ayrı-ayrı adamlar müəyyənləşdirirlər. Ümumi Rusiya-Azərbaycan dostluğu deyilən bir şey yoxdur. Bu mənada İlham qardaşımız Rusiya ilə qurulan körpülərimizdən biridir. Bəzi şəxslər var ki, onlar Rusiyaya təzim edib, onları yenidən bu vətəndə görmək istəyirlər. 20-ci illəri unudan, bütün son 200 ili unudan nəslin qabağında İlham Rəhimov son dərəcə parlaq bir şəxsiyyətdir. Çünki Rusiya-Azərbaycan münasibətlərini bərabər səviyyədə görür. Öz şəxsiyyəti ilə bildirir ki, biri əzib, digəri əziləndə dostluq olmaz. Qardaşlıq bərabər olmalıdır. Bütün bunların hamısı haqqında hüquq dili ilə danışır. Rusiya bizim böyük qonşumuzdur və onlarla münasibətləri korlamaq qətiyyən olmaz. Əksinə, getdikcə münasibətlərimizi genişləndirməliyik. Bütün bunları ləyaqətlə, dövlət maraqlarını qoruyaraq etmək lazımdır. İlham bəy də məhz bu yolu tutub. Ona görə də İlham Rəhimova öz təşəkkürümü bildirirəm".

Daha sonra çıxış üçün söz **şair, tərcüməçi Çingiz Əlioğluna** verilib. Ç.Əlioğlu da mükafatçıları təbrik edərək, onların gördükləri işlərin miqyası və faydaları barəsində danışıb.

**Çingiz Abdullayev də çıxış edərək, professor İlham Rəhimov barəsində fikirlərini səsləndirib:** "İlham müəllim böyük insan, alimdir. Onu xeyli sayda ölkədə tanıyırlar. Şəxsən bilirəm ki, İlham Rəhimova neçə ölkədə fəxri ad verilib və kitabları çıxıb. Bilirəm ki, onun dərslikləri bir çox ölkələrdə tələbələr oxuyurlar. Bununla mən də fəxr edirəm ki, bizim belə böyük hüquqşünasımız var. Belə azərbaycanlılarımızla fəxr edirəm".

**Ardınca həkim Seyfəddin Əsəd çıxış edərək, öz ürək sözlərini bildirib.**

❑ **Əli RAİS,**
**Fotolar müəllifindir**



# Ölkədən valyuta axını artıb, yoxsa azalıb?

## Ekspert: "Problem hələ tam həllini tapmayıb..."

**Hazırda Azərbaycan iqtisadiyyatının əsas problemlərindən biri də xaricə valyuta axınının artmasıdır. Əgər əvvəllər bu idxal əməliyyatları ilə bağlı idisə, indi daha çox vətəndaşların , əsasən də sahibkarların öz vəsaitlərini ölkədən çıxarması ilə bağlıdır.**

İdxal-ixrac əməliyyatları ilə bağlı ölkənin tədiyyə balansında müsbətə doğru dəyişikliklər olsa da, ölkədən bu valyuta axınının qarşısını almağa kifayət etmir. Nəinki xırda və orta sahibkarlar, hətta məmur-oliqarxlar, onların övladları belə vəsaitlərini ölkədən çıxartmağa can atırlar. Təsadüfi deyil ki, Gürcüstan və Türkiyə iqtisadiyyatına investisiya qoyanlar arasında Azərbaycan da mühüm yer tutur.

*Bəs görəsən, hazırki durumda valyuta axını artıb, yoxsa azalıb? Hökumətin bu istiqamətdə atdığı addımlar nəticə veribmi?*

"Yeni Müsavat"ın bu suallarını cavablandıran **iqtisadçı ekspert Samir Əliyev** bildirdi ki, neftin ucuzlaşmasına qədərki dövrlə müqayisədə, hazırda ölkədən çıxan valyutanın həcmində artım var: "Ancaq son 1 ildə bu müəyyən qədər səngiyib. Valyuta axını əsasən 2015-ci ildə gücləndi, 2016-cı ildə davam etməyə başladı. 2017-ci ildən müəyyən qədər sabitlik var. Əgər tədiyyə balansına baxsaq, burada da müsbət saldo yaranıb. Bunun səbəbi isə idxalın məhdudlaşdırılması, bir də ölkədən kapital axınının azalmasıdır. Kapital axınının olması ölkə iqtisadiyyatı üçün problemlər yaradır. Bu ilin birinci yarısında ölkədən 1,3 milyard dollar pul çıxıb. Bunun ən pis həddi isə 2015-i ildə baş verdi, bunun səbəbi isə manatın devalvasiyası idi. Qarşılıqlı olaraq manatın növbəti dəfə devalvasiyaya uğramasında da ölkədən kapital axınının güclənməsi mühüm rol oynadı. Kapital axınının qarşısını almaq üçün müxtəlif addımlar atıldı, valyutadəyişmə məntəqələri bağlandı. Lakin 2015-ci ildəki qədər olmasa da, kapital axını davam etməkdədir. 2015-ci ilin birinci yarısında isə ölkədən depozit və nağd şəkildə 4,6 milyard dollar pul çıxıb. 2016-cı ilin birinci yarısında isə 910 milyon dollara qədər azalıb. Bu ilin I yarısında, 1,3 milyard dollar olub. Deməli bu il bir qədər artıb. Son aylarda isə bir qədər səngiyib. Hələ ki, nəticə çıxartmaq üçün tezdir, çünki ilin ikinci yarısı hələ bitməyib".

**İqtisadçı ekspert vurğuladı ki, kapital axını həm çirkli pullar şəklində ola bilər, həm də rəsmi şəkildə:** "Rəsmi valyuta axını idxalın artması, müxtəlif şirkətlərin Azərbaycana dan çıxması və ya depozitlərin xarici banklara köçürülməsidir. Çirkli pul axını isə qeyri-rəsmi yollarla valyutanın ölkədən çıxarılmasıdır. Bu vəsaitlər milli valyutanı zərbə altına qoyur. Bizdə kapital axını müəyyən qədər azalsa da, problem tam həllini tapmayıb. Hökumətin problemi nə dərəcədə önlədiyini ilin sonunda biləcəyik".

**S.Əliyevə görə, xarici investisiyanın ölkəyə gəlməsi əvəzinə , ölkədən kapital axınının baş verməsi arzuolunan hal deyil:** "Biz mətbuatdan da oxuyuruq ki, sahibkarlar obyektlərini bağlayıb gedirlər, eləcə də xarici şirkətlər ölkəni tərk edirlər. İstənilən şirkətin bağlanması öz-özlüyündə kapital axınını şərtləndirən amildir. Bəzi şirkətlər var ki, onlar ölkədən kənara, Gürcüstana, Ukraynaya, hətta Rusiyaya köçürlər. Bu isə o deməkdir ki, öz vəsaitlərini ölkədən çıxarırlar. Bu arzuolunmaz haldır. Biz xarici ölkələrdən investisiya gözlədiyimiz halda, ölkəmizdən kapital axınının baş verməsi iqtisadiyyatı zəiflədən amildir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

# ATƏT rəsmisindən Kataloniya və Kürd muxtariyyətindəki referendumla bağlı sərt mövqe

**Azay Quliyev:** "Referendumlar ləğv edilməlidir, bu, təhlükəsizlik və istiqlal üçün vacibdir"



Azay Quliyev

**Şimali İraq Kürd Muxtariyyətində və Kataloniyada "müstəqillik" referendumlarının planlaşdırılması hazırda bütün dünyanın narahatlıqla izlədiyi proseslərdir. Dünyanın inkişaf tendensiyasına, müasir zehniyyətə və beynəlxalq hüquq normalarına zidd olsa da, hər iki bölgənin separatçı idarəediciləri öz "müstəqilliklərini" elan etməkdə israrlı görünürlər.**

Artıq hər iki bölgədə referendum keçirmək üçün konkret gün müəyyən olunub. Kürdüstan qurmaq üçün İraq kürdləri separatçı referendumlarını sentyabrın 25-nə təyin ediblər. Kataloniya hökuməti isə oktyabrın 1-də referendum keçirmək niyyətindədir.

Bu proseslərin bütövlükdə bəşəriyyət üçün təhlükə törədəcəyini təkcə politoloqlar, ekspertlər deyil, beynəlxalq qurumların rəsmi şəxsləri də SOS olaraq bəyan edirlər. ATƏT-in vitse-prezidenti kimi mühüm siyasi postu tutan, Azərbaycan Milli Məclisinin üzvü Azay Quliyev də bu məsələ ilə bağlı həyəcan təbili çalıb. Təbii, nüfuzlu bir beynəlxalq qurumun rəsmisinin - siyasətdə kifayət qədər ölçü-biçili olan Azay Quliyevin bu məsələdə açıq bəyanatlarla çıxış etməsi həm də o deməkdir ki, məsələ kifayət qədər təhlükəlidir və beynəlxalq aləm bu məsələni asanlıqla sinirməyəcək. Çünki söhbət separatçı meyllərin dünya boyunca bir tendensiya halına keçə biləcəyindən gedir və bu narahatlıq ifadə olunmaqdadır.

Heç şübhəsiz, böyük dövlətlərin rəsmi şəxslərinin açıqlamalarından da hiss olunur ki, onlar həm Kataloniyanın, həm də Kürdüstanın "müstəqilliklərini" qəbul etməyəcəklər. Bu isə o deməkdir ki, həmin bölgələr dünyanın yeni bir qanlı münaqişələr ocağına çevrilə və dünya üçün növbəti problemlərə çevrilə bilər. Faktiki olaraq "Kürdüstan dövləti" İraqın ərazi bütövlüyünü pozmaqla yanaşı, bu separatçı qüvvənin bir neçə ölkənin də ərazilərinə iddiası var. Bu, o deməkdir ki, bölgədə növbəti böyük münaqişə ocağı yetişir və qan su yerinə axa bilər.

Kataloniyanın müstəqillik referendumu qərarına İspaniya hökuməti şiddətlə qarşı çıxır. Bu, isə o deməkdir ki, Kataloniya "müstəqilliyini" elan edərsə, İspaniya buna heç də soyuqqanlı yanaşmayacaq və perspektivdə qanlı olaylar da qaçılmaz olacaq.

Odur ki, bu referendumların qarşısının indidən alınması çağırışları kifayət qədər məntiqlidir. Buna dair ATƏT vitse-prezidenti Azay Quliyev tvitter səhifəsində hər iki məsələ ilə bağlı konkret bir mövqe açıqlayıb. O, bu məsələlərə dair iki status həsr edib. Sitatlar: "Kataloniyanın 1 oktyabra birtərəfli qaydada təyin etdiyi müstəqillik referendumu legitim deyil. İspaniyanın ərazi bütövlüyü qorunmalıdır".

"Kürdüstan Parlamenti 25 sentyabra planlaşdırılan müstəqilliklə bağlı referendum qərarını ləğv etməlidir. Bu, bölgənin təhlükəsizliyi və istiqlalı üçün vacibdir"...

Məsələnin ən vacib detalı odur ki, hər iki bölgədə referendumlar birtərəfli qaydada - yəni sırf separatçılıqla keçirilir. Hansı ki, Kataloniyanın müstəqilliyinə muxtariyyət özü deyil, İspaniya qərar verə bilər. İspaniya isə bunun əleyhinədir. İraqda isə kürd muxtariyyəti açıq-aşkar separatçılıqla və torpaq iddiaları ilə ortaya çıxıb. Bu səbəblərdən həmin muxtariyyətlərin keçirdikləri referendumlar beynəlxalq hüquq normalarına tam ziddir və ATƏT-in vitse-prezidentinin də bəyanatlarına bu öz əksini tapır.

Bir məqamı da qeyd edək ki, İspaniyada və İraqda separatçı qüvvələrin "müstəqillik" referendumundan ermənilərin bəhrələnə biləcəyi haqda da danışılır. Ancaq Dağlıq Qarabağ separatçılarının, Ermənistanın bu məsələdə hansısa paralellər, oxşarlıqlar aparması üçün bəhanələr belə yoxdur. Çünki Dağlıq Qarabağ Azərbaycanın muxtar bölgəsi olaraq heç zaman Azərbaycanın dövlət büdcəsinə pul ödəməyib. Kataloniya İspaniya büdcəsinə hər il 15 milyard avrodan çox ödəniş edir. Dağlıq Qarabağ isə həmişə Azərbaycanın büdcəsindən dotasiya alıb. Ermənilər isə orada "müstəqilliklərini" elan edəndən sonra ianələr yığmaqla dolanırlar. Üstəlik, Kataloniyadan fərqli olaraq Dağlıq Qarabağda etnik təmizlənmə aparılıb, azərbaycanlılara qarşı soyqırım törədilib, onlar dədə-baba yurdundan didərgin salınıblar...

**Əlbəttə, qanunsuz referendumların keçirilməsi bəşəriyyətin sabitliyinə ciddi təhdiddir və bu məsələyə beynəlxalq təşkilatlar sərt təpki verməlidir.**

❑ Elşad MƏMMƏDLİ



# Azərbaycanın 666 düşməni - tam siyahı

## "Arzuolunmaz şəxslər"in arasında iki amerikalı kosmonavt da var; bəs bir nəfər "sirli" adam kimdir?

**Dilimizdə çox mücərrəd bir ifadə var - "İt dəftəri" ifadəsi. Ancaq son zamanlar deyəsən, bu mücərrəd ifadə öz mücərrədliyini yavaş-yavaş itirir. Dönür acı reallığımızın ayrılmaz bir parçasına. Mövzumu dəqiqləşdirirəm. Söhbət bizim Xarici İşlər Nazirliyinin "it dəftəri"ndən..., üzr istəyirəm, "Arzuolunmaz şəxslər" siyahısından gedir, biləsiz.**

2013-cü ilin sentyabr tarixinə görə siyahıda nə az, nə çox - düz 330 nəfər "arzuolunmaz şəxs"in adı vardı. Siyahı öz yüksək inkişaf dinamikası ilə başqa oxşar siyahılardan xeyli seçilir. Son 4 ildə siyahı bir-iki dəfə artıb hətta. Siyahıda kimlər yoxdur - müğənnilər, siyasətçilər, rəssamlar, artistlər, nüfuzlu beynəlxalq təşkilatların saçı ağarmış fəalları. İndi bizim bu "it dəftəri" 667 nəfər arzuolunmaz şəxsin adını özündə ehatə edir. Yəni, bizim hazırda dəqiq 666 düşmənimiz mövcuddur. Üzərinə yalandan bir nəfər yetimin adını əlavə etmişik ki, siyahı çox vahiməli, qorxulu görünməsin doğma xalqımızın gözündə. Axı 666 şeytan rəqəmidir...

Bəs o bir nəfər kimdir, hə?

Əşşi, heç kim. Məşhur Rusiya-Bolqarıstan müğənnisi Flipp Kirkorovun atası Bedros Kirkorov!

2012-ci ilin noyabrında Bakıda solo konserti ilə çıxış edən oğlu Filipdən düz bir il əvvəl bax bu Bedros Kirkorov, yallah deyərək, gedib Xankəndinə. "Dağlıq Qarabağ Respublikası"nın 20 illik yubiley şənlikləri zamanı səhnədə diz üstə çöküb. Bu cür dizibükülü şəkildə "Ararat", "Krunq" millətçi-daşnak təranələrini sonacan ifa edib. Yerli mətbuata eşidin nə deyib:

"Oğlum Filipp də ermənilər üçün ovcunun içindən gələni edir. Vova Arzumanyana musiqi birinciliyini məhz o verib 2010-cu ildə. Əlimiz yüngüldür. Qələbədən ruhlanan Arzumanyan bu nöqtədə çox dayanmayıb bildiyiniz kimi. Elə həmin ildəcə gedib "Junior Eurovision Song Contest-2010"-də birincilik qazanıb. Filipp, düzdü, erməniliyini çox da gözə soxanlardan deyil. Anası yəhudidir axı... Ancaq mən bununla qürur duyaram. Bolqarıstanda həmişə erməncə danışmışıq öz aramızda. Valideynlərim türkcə də danışırdılar hərdən".

Stepanakertdəki bu yubiley tədbirlərinə o vaxt çoxları qatılsa da, yadda qalan, fotokameraların yaddaşına həkk edilən şəxs o vaxt bircə nəfərdir - səhnədə diz üstə mahnı oxuyan həmin bax bu Bedros Kerkorov.

O vaxt Stepanakertdə Sovet ittifaqı qəhrəmanı Nelson Stepanyana bir abidə də ucaldılıbmış. Abidənin qırmızı lentini kəsmək şərəfi də məhz bu şəxsə- Bedros Kerkorova həvalənə olunub o vaxt.

Balası, atasından fərqli olaraq bizim "it dəftəri"nə..., yenə üzr istəyirəm "arzuolunmaz şəxslər" siyahısına düşməyib. Halbuku mətbuatda Filipp Kirkorovun Qarabağ səfərləri barədə məlumatlar az deyil.







***

Gözünüzə su verin. Siyahını yaxşı-yaxşı öyrənin bir. Siyahıya, gözümüz aydın, hətta iki Amerika astrofiziki, kosmonavtı da daxildir. 2012-ci ilin sentyabrında Dağlıq Qarabağda keçirilən "İnsan və kosmos" sərlövhəli beynəlxalq konfransa iki Amerika kosmonavtı qatılır - Çarlz Dyuk, Klod Nikolye. İkisi də, vaxti ilə "Apollon" peykinin uçuşlarında iştirak ediblər. İkisi də, ayaqları Ay səthinə dəymiş nadir insanlardandırlar. Ermənilərə çox vacib idi ki, bu izlər, bu ləpirlər Aydan sonra ikinci dəfə məhz Qarabağ torpağına həkk edilsin.

Azərbaycan XİN-nin bu səfərə münasibəti çox sərt olur. Kosmonavtların adı düşür bizim it siyahımıza. Ayda gəzmək, kosmonavt olmaq bizə girmir. Get Ayda nə oyun çıxarırsan çıxar. Ancaq sən bu Ay sərgüzəştlərini Azərbaycanda təkrarlaya bilməzsən.

Mövqeyimiz belədir. Sərtdir, bəli. Ancaq başadüşüləndir.

***

Siyahı, bilirsizmi nə vaxt şişib bütün ölçüləri aşır? 2012-ci ildə Qarabağda növbəti qanunsuz prezident seçkiləri keçirilən zaman. Bəli, rəsmi Bakı qərar verir öz hiddətini daha gizlətməsin. Müşahidəçilərin 80-ni də düşür bu "it dəftəri"mizə.

Ancaq bizim bu "it dəftərimiz" əbədi deyil. Müqəssirlər, lazım gəlsə bizim XİN qarşısında diz çöksə, "qələt etmişəm" tövbə ərizəsini yazsa, bütün bunlar nəzərə alınır. Sabiq XİN sözçüsü Elman Abdullayevin dediyi kimi, siyahı "flexible" məzmunludur. Yəni hər an mülayimləşib dəyişə bilər. Reallıqda, bəli, buna əməl edilir. Misal üçün Rusiya Dumasının ağır çəkili üzvü Aleksey Mitrofanov yazılı şəkildə öz qələtini boynuna alıb. Deyib Bakıdan icazəsiz bir də Qarabağı ziyarət etsəm, ünvanıma ən sərt ifadələri işlədə bilərsiz. Deyib qələt etmişəm, başımı qara daşa döymüşəm 2011-ci ildə Bakıdan icazəsiz Mardakertə getməyimlə. İçkili olmuşam. Baş vermiş hadisədən.., üzr istəyirəm, cinayətdən qəti xəbərim yoxdur. Bəs, xumar gözlərimi açanda gördüm artıq Mardaketdəyəm. "Moskva" şadlıq evinin açılışında öz növbəti geopolitik nitqimi söyləyirəm. Ardını daha xatırlamıram. Birdə gördüm qədəh əlimdən yerə düşdü. Özümə Moskvada gəlmişəm... Məni bağışlayın, xahiş edirəm...

Moskvadakı "Amerikanın səsi" bürosu rəhbəri Ceyms Bruk, "Con Hopkins" universitetinin tələbə-müəllim heyəti-cənab İvan Benoviç, Nikolas Bondra də bizim bu "tövbə nəfsliyindən" istifadə ediblər. Azərbaycan XİN-nin adına yazdıqları tövbə ərizəsində bizlərdən üzr istəyiblər. Ərizələr, müsbət cavablandırılıb.

***

Son zamanlar xarici dövlət nümayəndələri, xüsusən RF rəsmiləri bizim bu "it dəftəri"mizə qarşı əməlli-başlı vay-şivən qaldırıblar. Duma üzvü Roman Xudyakov 2013-cü ildə dövrü mətbuata verdiyi müsahibədə əsəblərini cilovlaya bilməyib. Deyib bəs bu siyahıya RF vətəndaşlarının salınması tam özbaşınalıqdı. Yəni siyahı indi özü "arzuolunmazdır". Rusiya ilə Azərbaycan arasındakı dostluq tellərinə amansız zərbələr vurur guya. Belə davam etsə, məsələ bir gün RF Dumasında müzakirəyə də çıxarıla bilər bəlkə. Bəs Ermənistandakı sabiq RF səfiri Vladimir Stupişinin, 14 nəfər Duma üzvünün, nəhayət, qocaman Betros kişinin adı niyə bu qara siyahıya düşməlidi axı?

***

Oxşar qara siyahı Ukraynada, Litvada RF rəsmilərinə qarşı mövcuddur. Ancaq nədənsə bu siyahı şimal qonşumuzu hiddətləndirmir. Siyahıda görün ağır çəkili nə qədər dövlət nümayəndəsi var - Dmirtiy Raqozin, Sergey Qlazyev, Valentina Matviyenko, Sergey Narışkin, Vladislav Surkov, Dmitriy Keselev. 33 nəfərdən ibarət bu siyahı rəsmi Brüsseldə, Avropa Parlamentində təsdiqlənib gör neçə vaxtdır. Ləğvinə, belə getsə, ümüd yoxdur.

Qısası, indi hərə əlinə bir dəftər götürüb öz düşmənlərinin adını qeyd edir ora. Aeroportdakı qeydiyyat masaları önündə bir də görürsən xoşagəlməz hadisələr baş verir. Bəzi rəsmi qonaqlar məcbur qalır qapımızdan geri qayıtmağa. Oxşar bəlalar başqa coğrafiyalarda da yaşanılır indi. Məncə, bu 666 nəfəri qara siyahıda saxlamaq özünü doğrultmur. Müqəssirləri daha da ifrata vardırır. Geriyə yol olmadığını görən bu şəxslər avtomatik olaraq əbədi düşmənlərimizə çevrilirlər.

Məncə, bu siyahı yaxınlarda sıfırlaşsa, əfvə məruz qalsa, əla olar.

Bu gözükölgəliləri biz Bakıya dəvət edib əsl həqiqətə qarşı gözlərini aça da bilərik. Yaxşısı, bu şəxsləri bir konfransa dəvət etməkdi, vəssalam.

**Sonra, kim Qarabağa gedirsə getsin. Day özündən küssün sonra.**

❑ Həmid HERİSÇİ

# Sabiq vitse-premyerin başı dərddə

**"AST" Şirkətlər Qrupunun prezidenti (o, səhmləri oğulları arasında bölüb rəhbərlikdən formal uzaqlaşıb) Telman İsmayılovun ("AST Telman") 8 sifarişli qətl törədən cinayətkar qrupun işinin araşdırılmasının yeni sensasion təfərrüatları məlum olub.**

"Rosbalt" agentliyi hüquq-mühafizə orqanlarına yaxın mənbəyə istinadən xəbər verir ki, cinayət işi üzrə T.İsmayılovun əleyhinə ifadə verənlərdən biri də onun 15 il köməkçisi işləmiş Sergey Qavryuşindir. Agentlik onun "vacib şahid" kimi istintaqla əməkdaşlıq etdiyini və Telman İsmayılovun ona hansı cinayət əməli olan göstərişlər verdiyini iddia edib. Bildirilir ki, Qavryuşin T.İsmayılovun hazırda həbsdə olan qardaşı Rafiq İsmayılovun təsisçisi olduğu "Merkuri-R" MMC-nin də baş direktoru işləyib. "Merkuri-R" "AST Telman"ın nəzarətində olan "Çerkizov" bazarı bağlandıqdan sonra təsis edilib. MMC-yə "Abramsevo" pal-paltar bazarı və daha bir neçə bu tipli obyektlər daxil imiş. MMC 2016-cı ildə- "AST Telman"ın qardaşı Rafiq İsmayılovun həbsindən sonra ləğv olunub.

"Rosbalt" yazır ki, məhz Qavryuşinin ifadələrindən sonra T.İsmayılovun Moskvadakı evlərində axtarış aparılmasına qərar verilib. Bildirilir ki, Qavryuşin İsmayılov qardaşlarına "kölgələri" qədər yaxın olduğundan ondan heç nə gizlətməyiblər və qurduqları planlardan onun da xəbəri olub. "Qavryuşinin ifadəsi əsasında 2000-ciu ildə öldürülən biznesmen Andrey Lobanovun və digər cinayətlərin üstünü açmaq mümkün olub" deyə, xəbərdə bildirilir. O da bildirilir ki, Qavryuşin hazırda dövlətin təminatı altındadır və cinayət işində vacib şahid kimi qorunur.




## "AST Telman"ı kimin ələ verdiyi bilindi - Abbas Abbasov istintaqa cəlb ediləcək

### 15 il Telman İsmayılovun köməkçisi işləmiş Sergey Qavryuşin istintaqa nələr deyib?; "AST Telman"ın və qardaşlarının cinayət işlərinin xronikası A.Abbasovun məhz şirkətdə işlədiyi dövrə təsadüf edir və onu da...

Qeyd edək ki, bundan əvvəl də İsmayılovların əleyhinə daha bir yaxın adamları-Rafiq İsmayılovun "sağ əli" hesab olunan Harri Boleçerkovski ifadə vermişdi.

Beloçerkovskinin iddiasına görə, sifarişli qətllər məhz 2000-2016-cı illərdə İsmayılov qardaşlarının iştirakı ilə törədilib. Bütün qətllər Moskvanın Şimal Administrativ Dairəsində ticarət obyektləri uğrunda aparılan kriminal müharibə ilə bağlı olub. Beloçerkovski Andrey Lobanovun aradan götürülməsi söhbətinə şəxsən şahidlik etdiyini bildirib.

Rafiq İsmayılov daha bir şəriki Vladimir Savkinin aradan götürülməsində də suçlanır. Belə ki, onların şərikli ticarət kompleksinə malik olublar. Sonradan şərikli biznes satılıb və 10 milyon dollar gəlir əldə olunub. Amma R.İsmayılov şərikinə çatmalı olan 5.6 milyon dollar verməyib. İstintaqçılar hesab edirlər ki, R.İsmayılov pulu V.Savkinə verməmək üçün onu aradan götürmək qərarına gəlib. Bunun üçün əvvəllər məhkum olunmuş Mehman Kərimova V.Savkinin qətli sifariş olunub. Hadisə zamanı V.Savkin təsadüfən biznesmen tanışı ilə birlikdə olduğundan killer onu da öldürüb. Qətldən az sonra Rafiq İsmayılov saxlanılıb və Telman İsmayılov hüquq-mühafizə orqanlarındakı əlaqələri sayəsində onu həbsdən yayındıra bilib və buraxdırıb. V.Savkinin oğlu Roman Savkinin davamlı şikayətlərindən sonra məsələyə Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkin qarışıb və yeni müstəntiq işin üstünü bir neçə günə açıb.

Rafiq İsmayılov ifadəsində deyib ki, killer Mehman Kərimov onun tanışıdır və hadisə vaxtı "təsadüfən" ona sürücülük edib.

"AST Telman"ın daha bir qardaşı- Vaqif İsmayılov isə 2 nəfərin qətl işi üzrə əsas fiqurantdır. V.İsmayılov Rusiya DİN-in Baş Cinayət Axtarış İdarəsinin keçmiş əməkdaşıdır. İstintaqın gəldiyi nəticəyə görə killer Mehman Kərimov İsmayılovların sifarişi ilə qətl törədib və Vaqif İsmayılovun evində gizlənib.

İsmayılov qardaşlarının ağır cinayətlərdə suçlanması, iş üzrə ən yaxın adamlarının onları ələ verməsi hələ ki özünü ustalıqla gizlədə bilən Abbas Abbasovun da başının dərdə olduğu ehtimalını gücləndirir. Çünki İsmayılov qardaşlarının cinayət törətdiyi həmin illərdə AST Şirkətlər Qrupunda vitse-prezident məhz Abbas Abbasov idi. 2006-cı ildə Azərbaycanda baş nazirin birinci müavini postundan uzaqlaşdırılandan sonra ona Telman İsmayılov sahib çıxdı. Moskvaya gedən Abbas Abbasov üçün şirkətdə vitse-prezident postu boşaldıldı. A.Abbasov köhnə dostu ilə şirkətdə fəaliyyətə başladı. AST Şirkətlər Qrupunda işləməsindən məmnun olan A.Abbasov Telman İsmayılovun ən qatı müdafiəçilərindən biri kimi tanınırdı. Məsələn, 2010-cu ildə Moskvada xüsusi siqnalla hərəkət edən maşın saxlanılmışdı və məlum olmuşdu ki, qaydaları pozan avtomobil "AST Telman"ın ailəsinə məxsusdur. O zaman A.Abbasov Rusiya agentliklərində israrla "AST Telman"ın ailəsini müdafiə edir, onların xüsusi fərqləndirmə siqnalının olmadığını deyirdi. A.Abbasovun təkcə Telman İsmayılovla deyil, onun qardaşları ilə də çox yaxın olduğu kimsəyə sirr deyil. T.İsmayılova qarşı Rusiya hakimiyyətindən təzyiqlər başlayandan sonra da A.Abbasova onun yanında oldu.

A.Abbasovun ciddi dəstəyi ilə "AST Telman" bu dəfə Türkiyəyə yerləşdi, bu ölkənin vətəndaşlığını aldı və "Mardan Palace" ni tikdi.

A.Abbasovun guya "ictimai əsaslarla işlədiyi" AST Şirkətlər Qrupundan nə zaman ayrıldığı barədə dəqiq bilgi yoxdur, amma özünün vikipediya məlumatlarında o hələ də şirkətdə vitse-prezident kimi göstərilir.

"AST Telman"ın və qardaşlarının cinayət işlərinin xronikası A.Abbasovun məhz şirkətdə işlədiyi dövrə təsadüf edir. A.Abbasov bu kimi işlərdən "quru çıxmağı" bacaran adamdır. Amma istənilən halda, Rusiya İstintaq Komitəsi onu da açılmış cinayət işi ilə bağlı mütləq dindirəcək. Başqa bir variant mümkün deyil...

❑ **"YM"**

# Akif Çovdarov bəraətlə azadlığa çıxır - iddia

## İlham İsmayıl: "Azərbaycanın yaxın tarixində belə şeylər olub"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun cinayət işi üzrə məhkəmə prosesi sona çatmaq üzrədir.**

Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə qapalı keçirilən prosesdə təqsirləndirilən O.Osmanovun vəkili müvəkkilinin barəsində bəraət hökmünün çıxarılmasını istəyib. A.Çovdarovun vəkili Sadiq Rəsulov da sabiq MTN generalın günahsız olduğunu, ittihamları qəbul etmədiyini və barəsində bəraət hökmünün çıxarılmasını istəyib. Proses sentyabrın 27-də təqsirləndirilən şəxslərin məhkəmədə son sözləri ilə davam etdiriləcək.

Hazırda məhkəməni izləyənlərin bir çoxunu bir sual düşündürür - Akif Çovdarov və onunla mühakimə olunan şəxslərə bəraət veriləbilərmi?

Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl deyir ki, "MTN işi" üzrə məhkəmə qarşısına çıxarılan şəxslərə bəraət verilə bilməz: "Akif Çovdarov, ümumiyyətlə hazırda məhkəmə qarşısına çıxarılıb mühakimə olunan ləğv olunmuş MTN zabitlərinin heç birinə bəraət düşmür. Onlardan böziləri deyirlər ki, "bizlik nə var, yuxarıdan deyiblər etmişik". "Mənə yuxarıdan tapşırıq verildi" fikri kimsəni cinayət məsuliyyətindən azad eləmir. Tapşırıq qanunidirsə, qanuni verilibsə icra olunmalıdır. Qanunsuz tapşırıq yerinə yetirilməməlidir. Tapşırıq konstitusiyaya, qanunlara ziddirsə, birbaşa cinayət törətməyə yönəlibsə icra olunmamalıdır. Yuxarıdakı deyirsə ki, cinayət et, etməlisən? Dövlət naminə, dövlətin və millətin təhlükəsizliyi naminə tapşırıq olmayıbsa, əksinə dövlətə və millətə qarşı olubsa, icra olunmamalı idi. Vəkillər də "tapşırıq yuxarıdan verilib, icra olunub" arqumenti ilə çıxış edirlər. Bəs, tapşırığı verəni niyə həbs etmirlər? Hazırda məhkəmə qarşısına çıxarılan şəxslər iş adamlarını, gözlərinə xoş görünməyənləri qanunsuz tapşırığa əsasən tutublar, döyüblər, mal-mülklərini, pullarını əllərin-



dən alıblar. İndi də bəraət istəyirlər. Bu absurddur. Törədilən cinayətlərə görə tutulan hər bir şəxs cəzaya çatdırılmalıdırlar. Hələ məhkəmədə araşdırılanlar bu adamların törətdikləri cinayətlərin 10-da biri deyil. Bu adamları o qədər cinayətləri var ki... Bəzi məsələləri ortalığa çıxarmırlar".

İ.İsmayıl deyir ki, bir zaman kəsiyi ötəcək və daha ağır cinayətlər üzə çıxacaq: "İndiki mərhələdə Akif Çovdarova bəraət verilməyəcək. İstintaq, sonradan da məhkəmədə "MTN işi" üzrə həbs olunanlara loyallıq ona görədir ki, tutulanları çox da sıxa bilmirlər. Bilirlər ki, bunları çox sıxsalar daha böyük məsələlərin üstü açılacaq və müvafiq olaraq həbslərin dairəsi də çox geniş olmalıdır. Elə məlumatların, informasiyalaırn üstü açıla bilər ki, arzuolunmaz vəziyyət yaranar".

İ.İsmayıl cəza təyini məsələsində ötən illərin təcrübəsinə müraciət edilədəcəyi qənaətindədir: "Azərbaycanda elə vəzifəli şəxslər olub ki, yuxarı səlahiyyətli şəxsin tapşırığını yerinə yetirib həbsə gediblər. Sonradan isə həmin adamı türmədən çıxarıb bəraətini verib nazir təyin ediblər. Azərbaycanın yaxın tarixində belə şeylər olub. Bu baxımdan Akif Çovdarova real cəza veriləcək, sonradan isə onu azad edə bilərlər".

Xatırladaq ki, dövlət ittihamçısı çıxışında A.Çovdarovun rütbələrdən, fəxri adlardan məhrum edilməklə 15 il, S. Məmmədovun 12 il, O.Osmanovun 9 il və A.Əliyevin 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Dövlət ittihamçısı S.Məmmədov, O.Osmanov və A.Əliyevin də rütbələr və fəxri adlardan məhrum olunmasını tələb edib

Qeyd edək ki, təqsirləndirilən şəxslər - Akif Çovdarova Cinayət Məcəlləsinin 145.3 (Qanunsuz azadlıqdan məhrumetmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 179.3.1, 179.3.2 (Mənimsəmə və ya israfetmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələbetmə külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə ), 228.4 (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə), 302.1, 302.2 (Gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4 (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən hədə-qorxu tətbiq olunmaqla külli miqdarda və təkrar törədildikdə), 313 (Vəzifə saxtakarlığı), 341.2.1, 341.2.2 və 341.2.3-cü (Bir qrup şəxs tərəfindən silah tətbiq olunmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə ağır nəticələrə səbəb olduqda) maddələri, Səlim Məmmədova həmin Məcəllənin 145.3, 179.3.1, 179.3.2, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.1, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 313, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri, Akif Əliyevə həmin Məcəllənin 145.3, 179.3.1, 179.3.2, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 313, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri və Orxan Osmanova isə həmin Məcəllənin 145.3, 181.3.1, 181.3.2, 182.3.1, 182.3.2, 302.2, 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4, 341.2.1, 341.2.2 və 341.2.3-cü maddələri ilə yekun ittihamlar irəli sürülüb.

**Zərərçəkmiş şəxslərə vurulmuş ziyanın ödənilməsinin təmin olunması üçün məhkəmə qərarları əsasında təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbslər qoyulub.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# 250 min azərbaycanlı üçün müstəqil Zəngəzur!

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Azərbaycanda "erməniofobiya"nın mövcudluğunu iddia edən Ermənistan rəhbərliyi "tutduğunu buraxmayan kor"un rolunu oynayır. Elə bu günlərdə iki erməni deputat Bakıdadır. Əgər erməniofobiya olsaydı, onlar hava limanındaca al qanına qərq edilərdi.**

Ancaq Bakıda doğulan Ermənistanın Avronest Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Armen Aşotyan da Sərkisyanın sərsəm fikirlərini təkrar edərək Azərbaycan məktəblərində düşmənçiliyin təbliğ olunduğunu iddia edib. Deməк, bunlar deyirlər ki, Qarabağ işğalda qalsın, günahsız insanların qanı batsın, Xocalıda qətlə yetirilən körpələrimiz unudulsun, 2 yaşlı Zəhranın qatilləri kef çəksin, karapetyanlar gəlib Qarabağda nar bağı (!) salsınlar, Azərbaycan xalqı da əvvəlkitək "qardaş olub Hayastan-Azərbaycan" oxusun. Utanmazcasına məhz belə hesab edirlər.

Azərbaycan prezidentinin BMT tribunasından etdiyi xəbərdarlıqsa dövlətimizin Qarabağdan heç zaman vaz keçməyəcəyini bir daha sübuta yetirdi. Qarabağdan vaz keçmək həm də ermənilərin növbəti ərazi iddiaları üçün "yaşıl işıq" yandırmaqdır. Daha bir neçə onilliklər keçəcək və bizlər olmayanda ermənilər "Kürə qədər bizimdir" iddialarını gündəmə gətirib "Miatsum" hərəkatına başlayacaq, şübhəniz olmasın! Onları erməni kilsəsi və diasporu zəhərləyib.

Azərbaycanlı deputatların İrəvanda üzləşdiyi təzyiqlər haqda illər öncə baş verənlər yadınızdadırmı? O zaman hətta Xocalı soyqırımına görə Ermənistanı ittiham etmiş Moldova ombudsmanı Aureliya Qriqoriu ölümlə təhdid edildi, güclə ölkəsinə döndü. Düşmənçilik belə olur!

Ancaq Azərbaycana gəlmiş erməni deputat Mane Tandilyan deyir "sabah biz Bakıda müxtəlif yerləri gəzəcək və baxacağıq ki, erməni irsi necə qorunub". Təsəvvür edin, bunlar utanmazcasına burada qorunan irsin monitorinqini keçirmək istəyir. Ancaq görəsən, Bakının mərkəzindəki erməni kilsəsini, ordakı 30 minlik kitabxananı görəndən sonra utanacaqlarmı? Ya təkcə Bakıda yaşayan 30 min erməni haqda bilgiləri varsa, Azərbaycana hədyanlar söyləməyə necə üzləri gəlir bunların?

Ermənistan məscidlərin dağıdıldığı, Azərbaycan izlərinin məhv edildiyi, məktəblərində antitürk kampaniyası aparılan, konstitusiyasında hətta Türkiyəyə ərazi iddiası əksini tapan ölkədir. Bu xəstələr hələ də inanırlar ki, Qarabağ məsələsini indiki nəsil "həll elədi", gələcək nəsillər də Araratı (Ağrını) "geri qaytaracaq".

Ermənilər heç bir addımı təsadüfi atmırlar, heç nəyi əbəs yerə demirlər. Son vaxtlar ardıcıl şəkildə Azərbaycanı "erməniofobiya"da ittiham olunması da əbəs deyil. Bununla Azərbaycan və erməni əhalinin bir yerdə yaşamasının mümkünsüzlüyünü sübuta yetirmək istəyirlər. Bütün tədbirlərdə onların bu arqumentlərini alt-üst etmək üçün kifayət qədər faktlar var.

Bu arada Azərbaycan təbliğatının işi təkcə erməni iddialarını yalanlamaqdan ibarət olmamalıdır. Həm də təbliğatda hücum taktikası qurmaq lazımdır. Qoy biz yox, ermənilər cavab verməк məcburiyyətində qalsın.

Azərbaycanda yaşayan ermənilərin sayı bəllidir. Ermənistansa o ölkədir ki, orada bir nəfər də azərbaycanlı yaşamır, hansı ki, Qarabağ savaşı başlayana qədər orada - qədim Azərbaycan torpaqlarında, Ermənistanın 22 rayonunda 250 min azərbaycanlı yaşayıb.

Ermənistan adlı dövlətdə, dədə-baba yurdunda yaşamış azərbaycanlıların öz evlərinə qaytarılması məsələsi danışıqlar masası üzərinə qoyulmalıdır, nəhayət ki. Düzdür, bu, indiki şərtlər daxilində real görünmür. Amma Ermənistanın Qarabağ erməniləri ilə bağlı arqumentlərinə qarşı ciddi cavabdır.

**Nə qədər ki, danışıqlar davam edir, biz daha tutarlı arqumentlərlə çıxış etməliyik. 80-100 minlik Qarabağ ermənilərinin təhlükəsizliyindən danışılırmı? O halda 250 minlik Ermənistan azərbaycanlılarının da təhlükəsizliyi müzakirə mövzusu olsun! Dağlıq Qarabağın "müstəqilliyindən" danışan İrəvan qarşısında Bakı da öz şərtini qoysun: "Buyur, sən də Göyçə-Zəngəzur azərbaycanlılarının müstəqilliyini qəbul et! İrəvan ikinci erməni dövlətini yaratmaq istəyirsə, onda biz niyə ikinci Azərbaycan dövlətini qurmaq istəməyək? Necə olur ki, bir ovuc erməniyə dövlət tələb edirlər, 2-3 dəfə çox əhalinin səsi eşidilməz olur? Danışıqlarda, biz də sözümüzü deyək! Nə zaman ki, danışıqlara son veriləcək, dövlət başçısı BMT tribunasından bəyan etdiyi kimi, işğalçıya növbəti aprel dərsi veriləcək...**



# Şeyxin idarəsinin ləğvi tələb olundu - məsələyə reaksiya gəldi

## Fazil Mustafa: "QMİ-nin ləğvini indiki şəraitdə doğru hesab etmirəm"

**Son günlər Azərbaycan mətbuatının əsas gündəmində olan şəxslərdən biri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Hacı Allahşükür Paşazadədir. Onun gündəmi zəbt etməsi rəhbərlik etdiyi quruma da təsir etməkdədir. Belə ki, onunla birlikdə QMİ barədə də mətbuatda artıq çoxsaylı xəbərlər gedir.**

QMİ ilə bağlı müzakirələrin əsasını isə qurumun ləğv edilməsi barədə tələblər tutur. Son olaraq, **ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a açıqlamasında bu məsələyə toxunaraq, dini qurumun fəaliyyətinin Azərbaycan Konstitusiyasına zidd olduğunu bildirib.

"Qafqaz Müsəlmanları İdarəsi nə üçün Bakıda yerləşir? Bunun bizə nə aidiyyəti? Məgər Azərbaycan Qafqazda yerləşir? Azərbaycan Zaqafqaziya respublikasıdır. Qafqaz Dağıstan, Çeçenistan, Stavropol, İnquşetiyadır. Bakıda Qafqaz Müsəlmanları İdarəsinin nə işi var?! Azərbaycan Konstitusiyasına görə, Azərbaycanda fəaliyyət göstərən hər hansı bir ictimai-siyasi təşkilat başqa dövlətlərin vətəndaşlarını öz sıralarına cəlb eləyə bilməz. Bəs bu Qafqaz Müsəlmanları İdarəsi Qafqazda yaşayan Rusiya vətəndaşlarını öz sıralarında necə birləşdirir?! Açıq-aşkar Azərbaycan Konstitusiyasına zidd fəaliyyətdir.

Allahşükür Paşazadənin son illərdə İslam dini ilə, Quranla bağlı efirə, xalqın qarşısına çıxıb çıxışlar etdiyini görmüsünüz!? Din xadimi kimi üzərinə düşən maarifləndirmək işini yerinə yetirib!? Bu vəziyyət Allahşükür Paşazadənin və onun rəhbərlik etdiyi qurumun fəaliyyətinə güzgü salır. Gəlin görək Qafqaz Müsəlmanları İdarəsi vergi verib? Halbuki yüz milyonlarla manat vəsait orada dövr edir. Bu, İdarənin fəaliyyəti prokurorluq tərəfindən yoxlanmalıdır", - deyə ADP sədri bildirib.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** S.Cəlaloğlunun fikirlərinin hüquqi cəhətdən doğru olduğunu söylədi: "Bu məsələnin hüquqi cəhətdən qoyuluşu doğrudur. Hər hansı bir Qafqaz ölkələrinin dini qaydalarına, onun formalarına qarışmaq ixtiyarımız yoxdur. Bu birmənalıdır. Amma bir şeyi unutmayaq ki, Qafqaz Müsəlmanları İdarəsi təkcə dini qurum kimi gündəmdə deyil, həm də siyasi qurum kimi nəzərdə tutulur. Bölgənin reallığından çıxış edərək Azərbaycanın digər Qafqaz ölkələri ilə əlaqələrinin kəsilməməsi baxımından ölkəmiz üçün vacib qurumdur. Hüquqi cəhətdən natamamlıq varsa, vergi ilə bağlı problemlər mövcuddursa, bunlar qanunauyğun şəkildə tənzimlənməlidir. Bu qurumun indiki şəkildə ləğv olunması bizim Qafqazla əlaqələrimizn ortadan qalxması anlamına gələ bilər. Burada olan dindarlar, icmalarla münasibətlərimizin kəsilməsi görüntüsü yaranar. Buna görə idarənin bu formada ləğvi məsələsinin indiki şəraitdə doğru olmadığı düşüncəsindəyəm. Amma qurumun fəaliyyətindəki nöqsanlarla bağlı konkret addımlar atılmalıdır. Bunlar da qanunvericiliyə mütləq uyğunlaşdırılmalıdır".



**Deputat QMİ və A.Paşazadə ətrafında gəzən söz-söhbətlərə də toxundu**: "Son vaxtlar bu qurumla bağlı başladılan məsələlərə gəlincə, hesab edirəm ki, burada müəyyən şübhəli məqamlar var. Eyni vaxtda bir sıra hadisələrin baş verməsi Azərbaycanda problem yaratma istiqamətində çalışan qüvvələrin sistemli, düşünülmüş fəaliyyəti kimi baxılır. Açığı dini, nöqteyi-nəzərdən şeyxülislamlıq yaxud bu qurumun dini icmalara nəzarət etməsinin məqsədəuyğunluğu və başqa məsələlər üzərində dayanmaq istəmirəm. Bugünkü Azərbaycan reallığında ideal dini lider obrazı axtarmırıq. Biz dünyəvi dövlətik. Hər hansı bir dini liderin mənfi və ya müsbət xüsusiyyətlərinin olması müəyyən dərəcədə dindarları, dini icmaları maraqlandıran məsələdir. Allahşükür Paşazadə kimi bir obrazın olması ən azından bölgədə və dünyada müəyyən dini qurumların təmsilçilik prosesində bir söz sahibinin olması deməkdir. Ona görə də şeyxin Azərbaycan cəmiyyətində mötədil bir fiqur olması, barışdırıcı bir mövqe nümayiş etdirməsi müsbət haldır. Digər tərəfdən, dini fanatizmə də özünün xarakteri ilə rəvac verməyən bir fəaliyyət göstərir. Siz diqqət edirsinizsə, bütün çağırışları ölçülü-biçilidir. Məzhəblər arası fərqi qabartmadan müəyyən dərəcədə hər tərəfi nəzərə alan bir siyasət aparır. Bu da Azərbaycanın indiki maraqlarına uyğundur. Dini idealizm nöqteyi-nəzərindən hansısa bir keyfiyyətini tənqid etmək olar. Çıxışını, yanaşmasını, üslubunu belə tənqid etmək mümkündür. Amma bütövlükdə obraz olaraq rus, erməni, gürcü dinin liderlərlə birbaşa təmsilçilik imkanları varsa, biz bu imkandan imtina etməməliyik. Çünki hər hansı şəkildə burada bir boşluğun olması bizim beynəlxalq səviyyədə təmsilçilik imkanlarımızı məhdudlaşdırır. Orada biznes və başqa məsələlər ola bilər. Onsuz da Azərbaycanda bir çox vəzifəli şəxslər bizneslə məşğuldurlar. Qanunla müəyyən qadağalar olsa belə, bu heç kimə şamil olunmur. Çünki gəlir deklarasiyası məsələsi öz həllini tapmayıb. Tam hüquqi zəmində bu məsələni oturda bilməmişik. Bir şəxsi ittiham altında saxlamaq doğru olmazdı. Bu ümumi bir qanunun tətbiqi ilə bağlı məsələdir. Əgər hamıya şamil olunan bir məsələ yaranarsa, çox güman ki, məmurlar bu fəaliyyətdən uzaq durmağa çalışacaqlar. O zaman da sırf hüquqi dövlət modelinə keçmiş olacağıq. Bu baxımdan QMİ-nin ləğvini indiki şəraitdə doğru hesab etmirəm. Amma hüquqi cəhətdən Sərdar bəyin dedikləri doğrudur. Bunu biz də dəfələrlə vurğulamışıq. Başqa ölkələr bunu irad kimi bizə bildirə bilərlər. Amma faktiki olaraq, bu etirazla qarşılanmırsa, həmin ölkələr, orada olan müsəlmanlar tərəfindən Azərbaycanda oturan şeyxin avtoritetliyi tanınırsa, buna müsbət yanaşmalıyıq. Sözünü müəyyən qrup insan eşidirsə, bunun nəyi pisdir? Biz dövlət maraqları ilə məsələyə yanaşmalıyıq. Bu idarənin adının belə mövcud olması bizim üçün hər hansı bir mənfi çalarlar gətirmir".

**Dünən QMİ-nin məsələ ilə bağlı mövqeyini almağa çalışsaq da, mümkün olmadı. Məsul şəxslərdən kimsə telefonlarımıza cavab vermədi.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

**"Baxış bucağı"**

**2018-ci ildə Azərbaycanda keçiriləcək prezident seçkilərinə bir ildən bir az artıq vaxt qalır. Geniş imkanlarına rəğmən hakim Yeni Azərbaycan Partiyası hələ yay aylarından seçki hazırlıqlarına start verib. Maraqlısı budur ki, müxalif düşərgədə hələ də susqun vəziyyət hökm sürməkdədir və növbəti ən böyük siyasi hadisəyə hazırlıqlar müşahidə olunmur. Ümid Partiyasının sədri, sabiq deputat İqbal Ağazadə ilə söhbətimizdə əvvəlcə bu barədə danışdıq:**

# "Belə bolşevik yanaşmasının tərəfdarı deyiləm"

## İqbal Ağazadə: "Ölkədə 26-larla bağlı qadağa varsa, Səməd Vurğun gərək onda vətən xaini elan oluna və ümumiyyətlə ədəbiyyatımızdan çıxarıla"

***- İqbal bəy, bütün seçkilərdə aktivlik göstərən Ümid Partiyası nədənsə gələnilki prezident seçkiləri ilə bağlı aktivlik nümayiş etdirmir. Bunun səbəbi nədir? Ümumiyyətlə, seçkidə iştirak edəcəksinizmi?***

- Seçkidə iştirakla bağlı qərarı 2018-ci ilin ilk aylarında keçiriləcək qurultayımız verəcək. Hazırda qurultaya hazırlıq gedir. Ona qədər təbii ki, yerlərdə partiyanın hesabat-seçki konfransları keçirilir. Həm qurultaya nümayəndələr, həm hazırlıq, təşkilati məsələlər müzakirə olunur. Bu da əslində həm də seçkiyə hazırlıq kimidir. Amma ictimai-siyasi vəziyyətdən, vətəndaşların proseslərə dinamik yanaşmasından asılı olaraq seçkidə iştirak edib-etməməyimizi qurultay həmin tarixdə müəyyən edəcək.

***- Müxalifətin vahid namizədi ilə bağlı yeni müzakirələr başlayıb. Bu müzakirələrə münasibətiniz necədir?***

- Müzakirələr mümkündür. Bütün seçkiöncəsi vahid namizəd haqqında müzakirələr gedir. Amma bunlara münasibət nə dərəcədə pozitiv olacaq, deyə bilmərəm. Hələlik vahid namizəd məsələsi bizimçün aktual məsələ deyil. Bizimçün prinsiplər və demokratik dəyərlər aktualdır. O istiqamətdə də biz partiyaların bir-birinə və gələcək seçkilərə münasibətinin formalaşmasını arzulayırıq. Amma vahid namizəd müəyyən olunsun, bu, nəyi dəyişir ki? Bugünkü sistemdə onun yeri o qədər də uğurlu deyil ki, vahid namizəd müəyyən olunsa, müxalifət nəyəsə nail olacaq. Ümumilikdə demokratik ab-hava və seçki ab-havası zəifdir. Bu seçki ab-havasının zəif olması proseslərin özünü geriyə atır, müxalifətin və yaxud fərqli namizədlərin uğur qazanmasına mane olur. Amma bütövlükdə deyək ki, müxalifətin namizədi üçün hər hansı bir problem yoxdur, demokratik seçki ab-havası və seçici dinamikliyi olsa, istənilən seçkini udmaq, yaxud da yetərincə səs qazanmaq mümkündür.

***- Digər müxalifət partiyaları ilə münasibətləriniz necədir?***

- Hamısı ilə normal münasibətlərimiz var. Hesab edirəm ki, funksional əməkdaşlıq istiqamətində heç bir problem yoxdur.

***- Amma sizi son vaxtlar müxalifətin hansısa toplantısında görməmişik...***

- Müxalifətin toplantısı olmur axı, ona görə.

***- Özünüz də toplantı keçirmək təşəbbüsü göstərmirsiniz.***

- Yox. Elə bir təşəbbüsdə bulunmaq niyyətində deyilik.

***- Sabah (bu gün-red.) Milli Şuranın mitinqidir. İştirak edəcəksiniz?***

- Yox, iştirak etməyəcəyəm. Təşkilatçısı olmadığımız bir məsələdə iştirakımız bizimçün o qədər də aktual deyil və açığı, heç vaxt da olmayıb.

***- Son vaxtlar bir neçə tanınmış şəxsin həbsdən buraxılması bəzi müşahidəçilərdə yeni mərhələnin başlanması ilə bağlı nikbin rəylər yaratdı. Baş verənlərə sizin yanaşmanız necədir?***

- Deyə bilmərəm yeni mərhələ başlayıb, başlamayıb. Prezidenti Amerikaya səfəri öncəsi bu addım atılmışdı. Prezidentin səfərdən geri dönüşündən sonra aparılacaq siyasətdə bu barədə hansı müsbət tendensiyalar varsa, ondan sonra çıxış edib demək olar ki, bunlar davamlıdır, yoxsa təsadüfi xarakter daşıyır.

***- Dövlət başçısının ABŞ səfəri və BMT tribunasından çıxışını necə qarşıladınız?***

- Normal. Dövlət başçısı istənilən halda hər bir tribunadan millətinin, xalqının, dövlətinin problemini səsləndirmək üçün maksimum istifadə etməlidir.

***- Bundan sonra Qarabağla bağlı rəsmi Bakının mövqeyi sizcə, necə olacaq?***

- Azərbaycanın mövqeyi dəyişməyəcək. Heç Ermənistanın da mövqeyi dəyişməyəcək. Tribunalardan səslənən fikirlərin hamısı hakimiyyət mövqelərini möhkəmləndirməyə xidmət edən addımlardır. Ermənistan prezidenti də, Azərbaycan prezidenti də bilir ki, Dağlıq Qarabağ probleminin həlli beynəlxalq güclərin bu məsələyə münasibətindən və yanaşmasından asılıdır. Onlar isə heç biri fundamental şəkildə beynəlxalq təşkilatların və yaxud da iri dövlətlərin, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin mövqeyini birmənalı olaraq öz tərəflərinə dəyişə bilməyiblər. Nə Azərbaycan haqlı mövqeyinə görə onlardan o dəstəyi ala bilir, nə də Ermənistan işğal etdiyi torpaqların üzərindəki nəzarətini hüquqi müstəviyə daşıya bilir. Ona görə də vəziyyət dəyişməz qalacaq. Səslənən bəyanatlar və mövqelər, müharibə hədə-qorxularından tutmuş, "heç kimə heç nə verməyəcəyik", bütün bunların hamısı daxili auditoriyaya, seçiciyə hesablanmış addımlarıdır.

***- Son vaxtlar Rusiya gəmiləri Bakı limanlarını "su yolu"na döndəriblər, vaxtaşırı sahillərimizə yan alırlar. Bunun anlamı nədir?***

- Rusiya üçün təsadüf heç bir şey yoxdur. 20-ci ildə Çingiz İldırımın qarşıladığı rus gəmilərinin yerinə Rusiya gəmisi gəlirsə, burada təsadüfi heç nə yoxdur. Təbii ki, Azərbaycanın müstəqilliyinə xələl gəlməsindən, yaxud da yeni işğal faktorundan danışmaq absurddur, məntiqdən uzaqdır. Amma zəifləmək, öz iradəsinə tabe etdirmək, özünün idarəetmə orbitinə salmaq üçün cəhdlər var. O cəhdlər də davam edəcək.

***- Bu arada "26-lar" mövzusunun gündəmə gəlməsi hansı anlamı daşıyır? Deyəsən, heç 26-lar kafesi haqda danışmadınız...***

- Yox. Danışmadım.

***- Niyə susdunuz?***

- Vallah, mən Hacıbala müəllimin bu qədər vətənpərvər olduğunu heç ağlımın ucundan da keçirtmirəm. Hacıbala müəllimin verdiyi bəyanat ki, "Bakının mərkəzində 26-lar kafesi...", "ay qoyma, qaçdı, 26-lar bu şəkildə davam edir", bunlar hamısı mənə ironik gəlir. Çünki Bakının mərkəzində kimlərin heykəlləri yoxdur? Ayna Sultanovadan tutmuş, Nəriman Nərimanova qədər hər kəsin heykəli var. Məgər bunlar eyni əqidənin daşıyıcıları, Azərbaycanın müstəqilliyinin əleyhinə olan, "11-ci qırmızı ordu"nun Bakıya gəlməsinə şərait yaradan adamlar deyil? Dünənə qədər metrostansiyaların adlarından tutmuş, hər şeyə qədər var idi, bunu kimsə görmürdü? 26-lar kafesinin də məhz 26 Bakı komissarının adı ilə bağlı olmasını heç ağlımın ucundan da keçirtmirəm. Hətta Ermənistanın özündə belə, 26 Bakı komissarının onlara fayda verdiyi, yaxud onların qəhrəmanı olduğu anlayışı yoxdursa, bizdə nədən o anlayış olsun? Fərdlər ola bilər və o tək-tək-lərin də içərisində kafe-restoran adı seçə biləcək adam onun üzərindən piar qurub da bir xatirə kimi camaatın gözündən qaçsın, belə bir restoran yaratsın, bu, ağlımın ucundan keçmir. Dünyada 26-larla bağlı məşhur restoranlar, PAB şəbəkəsi var. Bütün bunlar hamısı mövcuddur və kifayət qədər məşhurdurlar. Amma burada biznes maraqları, yaxud da o kafeni işlədənlərin hansısa hakimiyyət qayda-qanunları - hüquqi qayda-qanunları yox - pozduğu qənaətindəyəm. Hesab edirəm ki, ora müdaxilə qeyri-qanuni idi. Hətta onlar cinayət işlətmiş olsa, belə, onların qapadılması, əmlakının qəsb olunması, əmlakının müsadirə olunması məhkəmə yolu ilə qanuni şəkildə həyata keçirilməli idi. Yoxsa bir icra strukturu gəlsin desin "qapadın, əmlakı müsadirə edin, bunlar düşməndir..." Kim müəyyən edib? Onun düşmənçiliyini müəyyən edən hüquqi faktor Cinayət Məcəlləsidir və konkret maddələrə görə də adam ittiham olunmalıdır. Bunun heç biri yoxdursa, vergi orqanları şirkətin, hüquqi şəxsin üzərinə hər hansı bir məsuliyyət qoymayıbsa, necə kimsə gəlib bağlaya bilər?

***- Amma bu hadisənin ardınca 26 komissarın məzarlarının bir qrup adam tərəfindən ziyarət olunması da diqqət çəkdi...***

- Vallah, mən o şəkilləri gördüm. 2-3 adam kimlərsə ziyarət edirdi. Bilmirəm, o təşkil olunmuş idi, ya yox. Bunun üçün də qadağa yoxdur e. Ölkədə 26-larla bağlı qadağa varsa, Səməd Vurğun gərək onda vətən xaini elan oluna və ümumiyyətlə ədəbiyyatımızdan çıxarıla. Bu adamlar da ondan tərbiyə almış adamlardır, pis-yaxşı. Azərbaycan ədəbiyyatında, mədəniyyətində, tarixində bir sovet dövrü olub. Sovet dövrünün atributlarından biri də 26-lar idi də. Biz Şaumyanı, 26-ları düşmən elan edirik. Amma bu ideologiyanın içərisində tərbiyə almış, hətta yaddaşının harasındasa müsbət mənada ilişib qalan birini də düşmən elan etməyəcəyik ki. Bu, ideolojilərdir. Bu ideolojilərdə kommunistlər var. Parlamentin, icra strukturlarının yarısı dünənki kommunistlərdir, neyləyək indi? Azərbaycanın müstəqilliyinin əleyhinə səs vermiş nə qədər adam bu gün dövlət vəzifəsindədir. Nə edək indi? O dövrdə elə düşünürdü, amma bu dövrdə düşünmür. Müstəqilliyi "xülya" hesab edirdi. Hesab edirdi ki, biz SSRİ-dən ayrıla bilmərik, bu, bizim başımıza faciə gətirəcək. Amma indi müstəqildir və o da bir görəvdə oturub. Belə bolşevik yanaşmasının tərəfdarı deyiləm.

***- İqbal bəy, Şeyx ətrafında baş verənlər barədə fikriniz nədir? Başlanmış kampaniyada hətta Rusiya izinin olması barədə iddialar var. Siz nə düşünürsünüz?***

- Mən Şeyxi uzun illərdir tanıyıram. Dövlət üçün, Vətən üçün kritik məqamlar olanda Şeyx hər zaman mövqe qoymuş insandır. 20 Yanvarda Şeyxin qoyduğu mövqe, onun müraciətləri və s. Bu, bir tarixdir və bu tipli tarixlərdə insanlar öz mövqeləri ilə seçilə bilirlərsə, o adamlar tarixdə qalacaqlar. Şeyx kimi vəzifəsini yaxşı icra edirmi, etmirmi? Proseslərə Şeyxülislam və yaxud da bir din idarəsi acısından baxmaq lazım deyil. Proseslərə ölkə miqyasından baxmaq lazımdır. Ölkədə proseslər fərqli yerə gedirsə, yaxud fərqli şəkildə inkişaf edirsə, Şeyxin də başqa bir şey gözləməyə dəyməz. Hesab edirəm ki, Şeyx yerində olan adamdır və funksiyasını yerinə yetirir. Niyə üzərinə düşüblər, nədən üzərinə gəlirlər, bu, artıq hakimiyyətdaxili mübarizənimi, yoxsa ayrı-ayrı fərdlərinmi yanaşmasıdır, bu, artıq məni o qədər də ciddi maraqlandırmır. Mən hesab edirəm ki, bu tipli geniş əlaqələri və ölkənin kritik məqamlarında mövqe ifadə edən adamlar dəyərli adamlardır və üzərinə getməklə nəyisə dəyişmək, nəyisə fərqli istiqamətə yönəltmək müsbət bir şey vermir. Bilirsiniz, Azərbaycan cəmiyyətinə bütöv halda baxmaq lazımdır. Bəzən biz müxalifətin, QHT-lərin, KİV-in, iqtidarın, ziyalıların mövqeyini təftiş edirik, birini pisləyirik, birini "vətən xaini" çıxarırıq. Bu, bir orqanizmdir, Azərbaycan cəmiyyətidir. Cəmiyyətin bütün sferalarında bu tipli hadisələr varsa, onda birini ayırıb da müqəddəsləşdirmək və ya birini ayırıb "vətən xaini" elan etmək doğru deyil. Kompleks şəkildə baxanda biz Azərbaycan cəmiyyəti buyuq. Hər yer düzələndə o sferalar da yavaş-yavaş öz yerini alacaq. Çətinliklər var deyə, insanlar bir-birinin üzərinə daha çox gedir. Ölkə olaraq istər sosial, istər vətəndaş həmrəyliyi istiqamətində, istər beynəlxalq aləmlə bağlı, istər demokratikləşmə ilə bağlı çox ciddi problemlərimiz var. O problemlər də bizi bu şəkildə bir-birimizin üzərinə getməyə vadar edir. Mən hesab edirəm ki, bütün məsələlərin hamısı masa arxasında çözülməlidir, bunu hər kəs qəbul etməlidir. Çünki çətin bir dövrə qədəm qoymuşuq, istər sosial cəhətdən, istərsə də dünyada baş verən hadisələr fonunda...



**"Şeyxi uzun illərdir tanıyıram, dövlət üçün, Vətən üçün kritik məqamlarda həmişə mövqe qoymuş insandır"**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017



# AzTV-yə təzyiqlərə son qoyulsun!

Zamin HACI
zaminhaci@gmail.com

**Ortalığa maraqlı, ekzotik bir cinayət işi çıxıbdır. Ekzotik adlandırmağım bunun ölkəmizə yaraşmayan, analoqu olmayan inkişafımızla uyuşmayan cinayət olmasıdır. Oxuyursan, adamın tükü ürpəşir. Dağda maşını vurub dərəyə salmaq istədilər, güllə ilə vurdular ölmədi, nə bilim, betona qarışdırıb "Yeni Həyat" yaşayış massivində divara hörmək fikrinə düşdülər...**

Elə bil biz regionun lider dövlətində yox, hansısa feodal Siciliya adasında yaşayırıq, rayonun icra hakimi də Təfəkkür Universitetinin hüquqi-beynəlxalq-politologiya-münasibətlərinin kommersiya iqtisadiyyatı fakültəsinin məzunu Gülbala müəllim yox, "Koza Nostra" mafiya təşkilatından Vito Korleone müəllimdir. İddia olunur ki, kimlərsə mütəşəkkil quldur dəstəsi yaradaraq AzTV sədri Arif Alışanovu öldürmək istəyibdir. İstəsən bunu söz azadlığına təzyiq sayıb "Sərhədsiz reportyorlar"ın illik hesabatına salmaq olar. Mehman Əliyevin qəfil tutulub-buraxılmasından sonra bu, bizim media bataqlığı aləmində ən böyük qalmaqaldır.

Quldurlar Arif müəllimin telekanalda Azərbaycan həqiqətlərini dünyaya, həmçinin uca millətimizə və sevgili xalqımıza çatdırmasından narahat olubmuşlar. Bunların bir ucu hakimiyyət daxilindəki klanlara, mafiyalara, dövlətçiliyə zidd qüvvələrə gedib çıxırmış. O biri ucu isə xaricdəki ermənipərəst dairələrə. Ən son dəfə Arif müəllim AzTV-nin "Xərəblər"... üzr istəyirəm, "Xəbərlər" proqramında ofşor hesablarda milli pullarımızı gizlədən məmurlar, devalvasiyadan əziyyət çəkən bank kreditçiləri, qul bazarında dilənçilik edən zəhmətkeşlər haqda süjetlər verdikdə artıq bunların (Cəlal əmi demişkən, "bınnar"; rəhmətlik bunu çox şirin söyləyərdi, sanardın cəbr elmindəki binar münasibətlərdən bəhs edir, əlbəttə, alim adam ayrı şeydir) səbr kasası daşıb, gizli toplantıda qərar verilib ki, Alışanovun başı gətirilməlidir. Killer dəstəsi yaradılıb. Onlar qabaqca Arif müəllimi Şamaxıya növbəti jurnalist araşdırmasına gedərkən maşınla vurub dərəyə yuvarlatmaq istəyibdir. Lakin Arif müəllimin "Toyota"sı quldurların "Niva"sının taran zərbələrində mətanətlə sinə gərmiş, heç cür aşmaq istəməyibdir. Deyilənə görə Arif müəllim bu anda canlı bağlantı ilə AzTV-nin "Dərələrdən, təpələrdən" verilişinə qatılıb, bildirib ki, əlindəki son reportajı hazırlamadan əcələ can verməyəcəkdir.

Sonra güllə ilə vurmaq istəyiblər. Bu niyə alınmayıb, doğrusu, məhkəmə reportajının həmin yerini oxumağa həvəsim olmadı. Üstəlik, müttəhimlər iddia edir ki, bu əhvalat başdan-ayağa quraşdırmadır, guya heç kim Alışanova sui-qəsd etmək istəməyibdir. Ay hay... Siz dediniz, biz də inandıq. Keçən ay bir informasiya agentliyinin müdirini tutub zindana salanda da deyirdilər guya xəbərimiz yoxdur. Axırda rəhbər işə qarışdı, müdir azadlığa çıxdı.

Burada bir haşiyə çıxım. Əslində hər sahədə jurnalistlər öndədir, canlarını vətənə fəda edirlər. Elə bu son agentlik şefinin həbsi əhvalatını götürək. Qərbdən hökumətə təzyiqlər gözlənilirdi, hökumət agentliyin şefini türməyə saldı. Sonra buraxdı, nəticədə Qərb hadisəni alqışladı, təzyiqlər də yaddan çıxdı. Bir növ, Molla Nəsrəddinin yorğan əhvalatı kimi. Bir gecə Molla evdə arvadı ilə yatarkən küçədə səs-küy qopur. Hava soyuq olduğundan yorğanı da çiyninə atır. Küçədə oğrular yorğanı qapıb qaçır. Evə qayıdanda arvadı deyir o nə səs-küy idi. Molla deyir: "Heç nə, arvad, dava yorğan davası imiş. Yorğan getdi, səs də kəsildi".

Qayıdaq Arif müəllimin əhvalatına. Əlbəttə, bayaq yazdığım ssenarilər hamısı, necə deyərlər, xəyal ürünü idi. AzTV sədrinə sui-qəsd isə biznes üstündə imiş - kimsə onun pullarına göz dikibmiş. Bizi xarici ölkələrdən fərqləndirən də elə budur. Orda jurnalisti söz üstündə vurmaq istəyirlər, bizdə pul üstündə. Çünki bizdə söz qalmayıb, çoxlu pul var ancaq. Orda jurnalistika var, bizdə zurnalistika. Orda KİV dördüncü hakimiyyətdir, bizdə KİV dördayaqlı məxluq yerinə də qoyulmur. Orda qanun şahdır, bizdə...

**Çox da uzatmayım, bunu 167 il qabaq Axundov yazıb qoyubdur: " Məsələn biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, onlar başı açıq oturarlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizlin alırlar, biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız uzun libas geyər, onların arvadları gödək libas; bizdə çox arvad almaq adətdir, Parisdə çox ər almaq".**



# İki stulda "oturan" Sərkisyanın tək çəzası - "Qarabağı ABŞ qaytara bilər"

## Ərdoğan-Putin görüşü ərəfəsində İrəvanın artan təlaşının əsası motivi; rusiyalı tanınmış **analitik:** "Moskva şansları əldən verir..."

**BMT tribunasındakı son təxribatçı çıxışı ilə Ermənistan prezidenti Serj Sərkisyan bir daha Qarabağ məsələsində İrəvanın konstruktivlikdən uzaq olduğunu nümayiş etdirdi. Cırtdan ölkənin başçısı hətta özündə cəsarət taparaq Türkiyə ilə şərt dilində danışmağa cürət elədi. Dedi ki, sərhədlərin açılmasını nəzərdə tutan Sürix protokolları 2018-ci ilin aprelinədək Türkiyə tərəfindən ratifikasiya edilməsə, onlar ləğv olunacaq. Guya bu protokollar izolyasiyadan əziyyət çəkən Ermənistandan çox, Ankaraya gərək imiş.**

Sərkisyanın belə həyasız, bir az da arxayın ritorikası böyük ehtimalla, son vaxtlar Ermənistanın iki stulda "oturmaq" istəyi ilə birbaşa bağlıdır. Söhbət İrəvanın Qərbə və onun aparıcı qurumları olan Avropa Birliyi (AB), NATO ilə gizli yaxınlaşma cəhdlərindən gedir. Təxminın bir ay sonra - noyabrda isə Ermənistan AB ilə çərçivə sazişi imzalamağa hazırlaşır. Halbuki, analoji sənədi heç Azərbaycanın özü hələ imzalamayıb və ilin sonunadək imzalanması gözlənilmir. İrəvan isə belə görünür ki, tələsir. Görəsən hara və niyə?

*****

Rəsmi İrəvanı Qərbdə tez-tələsik arxa-dayaq axtarmağa vadar edən səbəblərdən biri yəqin ki, son zamanlar Rusiya ilə Türkiyə arasında əlaqələrin, xüsusən də hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişafda olmasıdır. Məlumdur ki, Ankara və Moskva S 400 raketdən müdafiə sistemləri ilə bağlı artıq rəsmi anlaşma imzalayıb. Bu isə iki regional supergüc arasında daha da yaxınlaşma deməkdir. Ermənistan narahatdır ki, həm də Azərbaycana silah-sursat satan Moskvanın üstəlik, Ankara ilə sürətlə yaxınlaşması Qarabağ məsələsində onun mövqeyinin zəifləməsinə və ya qulaqardı edilməsinə gətirər.

Yeri gəlmişkən, sentyabrın 28-də - gələn həftə Türkiyə və Rusiya liderləri - Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin növbəti dəfə bir araya gələcəklər. Gündəlik hələlik tam bəlli olmasa da, müzakirə mövzuları sırasında ən azından Suriya (Yaxın Şərq), terrorla mübarizə, kürd referendumu məsələlərinin olacağı gözlənilir.

İki prezident yəqin ki, Güney Qafqazdakı durumu da diqqət mərkəzinə gətirəcək. Çünki potensial müharibə ocaqlarından biri Cənubi Qafqaz, Dağlıq Qarabağ konflikti zonasıdır. Yeni Qarabağ müharibəsi isə özündə Türkiyə və Rusiyanı üz-üzə gətirəcək riski daşıyır. Bu da nə qardaş ölkənin, nə də rəsmi Kremlin yaxın və orta perspektiv maraqlarına cavab verir. Hazırda daha ağır sanksiyalarla üzləşmiş Rusiyadan ötrü Türkiyənin önəmi artır ki, azalmır. Bu günlərdə Akkuyu AES-in tikintisi ilə bağlı tərəflər arasında yeni, 20 milyard dollarlıq anlaşmanın əldə olunması qarşılıqlı ehtiyacı və asılılığı daha da artıracaq.

*****

Münasibətlərin dinamik inkişafda olduğu dönəmdə Qarabağ ixtilafının qızışması isə tərəfləri qəliz seçim qarşısında qoya bilər. Bu üzdən iki prezidentin Dağlıq Qarabağ məsələsi ətrafında hansısa ortaq mövqeyə gəlməyə çalışması istisna edilmir. Ankaranın mövqeyi bəllidir və bunu prezident Ərdoğan BMT Baş Məclisinin son toplantısında bir daha dilə gətirdi. Türkiyə lideri Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpasının Cənubi Qafqazda sülhün əldə olunması üçün əsas şərt olduğunu söylədi.

Sözsüz ki, bu ilk növbədə Rusiyanın forpostu Ermənistana mesajdır. Eyni zamanda onun mesajıdır ki, Türkiyə Azərbaycanın ərazi bütövlüyünün zorla dəyişdirilməsi ilə heç vaxt barışmayacaq. Deməli, mesaj incə şəkildə Ermənistanın əsas havadarı Rusiyaya da ünvanlanıb. Diqqətçəkicidir ki, Ərdoğanın həm BMT-dəki məlum çıxışı, həm də V.Putinlə qarşıdakı görüşü zamanı Azərbaycan-Türkiyə ortaq təlimləri davam edəcək (Sentyabrın 28-də bitəcək). Qardaş ölkənin və başçısının Azərbaycanla bağlı bu son mövqeyi, İrəvan və Moskvaya Qarabağ ismarışları sözsüz ki, məmnunluq yaradır.

*****

"Türkiyə Qafqaz ölkələri ərazisində olan problemlərin aradan qaldırılması haqqında fikir söyləməklə bu proseslərdə çox fəal iştirak edəcəyini ortaya qoyur". Bu sözləri Axar.az-a politoloq Qabil Hüseynli Ərdoğanın BMT Baş Assambleyasında çıxışı zamanı Azərbaycanın ərazi bütövlüyü məsələsini gündəmə gətirməsinə münasibət bildirərkən deyib. O bildirib ki, Ərdoğan çıxışında həm Azərbaycanın, həm də Gürcüstanın mənafeyini nəzərə alıb.

"BMT Baş Məclisində əsas müzakirə mövzuları ölkələrin suverenliyinin və ərazi bütövlüyünün qorunması olub. Bu məsələlərin həlli ilə bağlı problemlər demək olar ki, bütün iştirakçı ölkələrin rəhbərlərinin çıxışlarında yer alıb. Onlardan ABŞ Prezidenti Donald Trampın və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözləri ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Həm Tramp, həm də Ərdoğanın çıxışında Qarabağ probleminin həlli üçün müsbət məqamlar çoxdur".

Politoloq Türkiyə prezidentinin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı problemi dəfələrlə gündəmə gətirdiyini yada salın: "Hazırda Türkiyənin Azərbaycanla əlaqələri yüksələn xətt üzrə inkişaf etməkdədir. Heç təsadüfi deyil ki, Türkiyə və Azərbaycanın hərbi hava qüvvələrinin iştirakı ilə "TurAz Qartalı - 2017" birgə taktiki təlimlər keçirilir. Bu da Türkiyənin Azərbaycanla strateji tərəfdaş olduğunu göstərir. Türkiyənin Azərbaycanla yaxınlığı Cənubi Qafqazda baş verən hadisələrin daha da dərinləşəcəyini göstərir. Onsuz da Türkiyənin bölgədəki nüfuzu göz önündədir. Son günlər Ermənistan prezidenti Türkiyəyə qarşı hədələyici çıxışlar edir. Bu, onu göstərir ki, Ermənistan Türkiyənin bölgədəki nüfuzundan narahatlıq hissi keçirir. O cümlədən bölgədə Türkiyə amilinin güclənməsini istənməyən qüvvələr az deyil. Amma Gürcüstan və Azərbaycanla Türkiyənin inkişaf edən əlaqələri onun Cənubi Qafqazda möhkəmlənəcəyini göstərir. Artıq bölgədə və beynəlxalq aləmdə Türkiyə, Gürcüstan və Azərbaycan üçlüyü yeni layihələrlə çıxış edir. Bu günədək bu 3 ölkənin xarici işlər nazirləri tez-tez görüşüblər. Həm də nəzərə alaq ki, bölgədəki böyük layihələrin çoxu məhz bu 3 ölkənin ərazisindən keçməklə və bu ölkələrin iştirakı ilə həyata keçirilir. Yaxın 2-3 ay ərzində bu üçlü ittifaqın daha da möhkəmlənməsi proqnozlaşdırılır".

*****

Tanınmış rusiyalı tarixçi-analitik və politoloq Oleq Kuznetsov isə hesab edir ki, beynəlxalq birlik əslində BMT timsalında İrəvanı qətnamələri yerinə yetirməyə məcbur eləmək gücündədir. Musavat.com-un "Vestnik kavkaza" nəşrinə istinadən verdiyi məlumata görə, politoloq deyib ki, ortada iradə olarsa, Ermənistan da qətnamələri yerinə yetirməyə məcbur edilə bilər: "Sual ortaya çıxır ki, bəs, İrəvan üçün patron-ölkə qismində kim çıxış edəcək?"

Rusiyalı analitikə görə, yaxın zamanlara kimi belə bir ölkə qismində Rusiya çıxış edib: "Ancaq Moskva Ermənistanı qətnamələri yerinə yetirməyə tələsdirmədi. İndi isə biz görürük ki, İrəvan Avroatlantik oriyentasiyaya doğru de-marş eləməyə çalışır, sözdə deyil, məhz işdə Rusiyanın ondan ötrü artıq patron-ölkə olmadığını göstərməyə çalışır. Əgər nəzərə alsaq ki, Ermənistan ərazisində sayca dünyada ikinci olan 1500 nəfərlik ABŞ səfirliyi yerləşir (bundan böyüyü Bağdadadır), o zaman söyləmək olar ki, Rusiya yalnız üzdə Ermənistanın arxası sayılır, İrəvan hakimiyyətinə əsas təzir rıçaqları isə ABŞ-ın əlindədir. Lakin ABŞ və Rusiya indi qarşıdurma vəziyyətindədir və onlardan heç biri Ermənistanı qətnamələri yerinə yetirməyə vadar eləmək üçün digərinə kompromisə getməyəcək".

**Demək, qalır üçüncü yol: Azərbaycan Ordusunun güc yolu ilə torpaqları azad eləməsi. İrəvanın bir əndişəsi də Türkiyə-Rusiya yaxınlaşması fonunda belə bir variantın reallaşma ehtimalının günbəgün artmasıdır.**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

# ÜAK-a görə Rusiyaya qarşı cavab addımı atmalıyqmı?

**Rusiya Ali Məhkəməsinin Apelyasiya Kollegiyası Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğv edilməsi barədə məhkəmə qərarını qüvvədə saxlaması ortaya bir sıra suallar çıxarıb. ÜAK məsələsi Azərbaycanla Rusiya arasında ciddi soyuqluğa gətirib çıxara bilərmi? Azərbaycan etirazını məsələn, Rusiyadan silah alışını azaldacağını bəyan etməklə ortaya qoya bilər, yoxsa bu vəziyyəti daha da gərginləşdirər? ÜAK-ı başqa ad altında qurum təsis etməklə brəp eləmək olmazı?**

## Şahin Cəfərli: "ÜAK Rusiyada bir növ "ikinci səfirlik" kimi fəaliyyət göstərirdi"

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, Ümumrusiya Azərbaycan Konqresi ilə bağlı məsələdə aydın olmayan bəzi məqamlar var. Ola bilsin bu, əlimizdə kifayət qədər informasiya olmamasından qaynaqlanır: "Məsələn, rəsmi Bakının bu quruma niyə bu dərəcədə həyati önəm verdiyini anlamaq çətindir. Əlbəttə, ÜAK Azərbaycan dövlətinə və hakimiyyətinə yaxın bir qurum idi, Rusiyada bir növ "ikinci səfirlik" kimi fəaliyyət göstərirdi. Lakin ÜAK-ın ləğvini sakit qarşılayıb, diqqəti onun yerində yeni bir təşkilat qurmağa yönəltmək olmazdımı? Bunun əvəzində biz onu müşahidə etdik ki, Azərbaycan hökuməti bütün diqqətini ÜAK-ın ləğvi prosesini dayandırmağa yönəltdi, bu məqsədlə prezident Putin də daxil olmaqla, Rusiya siyasi rəhbərliyinə ardıcıl müraciətlər, çağırışlar ünvanladı. Mən düşünürəm ki, Azərbaycanın bu reaksiyası və problemi açıq müstəviyə çıxararaq siyasiləşdirməsi heç də Moskvanın xoşuna gəlmədi. Onlar bunu Rusiyanın hüquq sisteminə, Rusiyadakı hüquqi prosedurlara müdaxilə cəhdi kimi qiymətləndirdilər. Məncə, ÜAK məsələsində Rusiya tərəfinin geri addım atmamasının səbəblərindən biri bu ola bilər. Yəni Kreml nümayiş etdirmək istədi ki, Rusiya məhkəmə-hüquq sistemi müstəqildir və istər ölkənin siyasi rəhbərliyi, istərsə də başqa dövlətlər onun işinə təsir göstərə bilməz. Lakin aydındır ki, Kreml istəsə, məhkəmə qərarına müdaxilə edə və təşkilatın ləğvini əngəlləyə bilərdi. Rusiya kimi dövlətlərdə bu mümkündür. Elə Azərbaycan tərəfi də bunu gözləyirdi. Rusiya hakimiyyəti bu addıma getmədi. Bunun səbəblərindən biri, qeyd etdiyim kimi, Rusiyada məhkəmə hakimiyyətinin müstəqilliyini və siyasi iqtidardan asılı olmadığını nümayiş etdirmək ola bilər. Digər səbəb isə, düşünürəm ki, siyasi xarakterlidir və ÜAK-ın Azərbaycan dövlətinə yaxınlığı ilə bağlıdır. Moskva Rusiya azərbaycanlılarının əksəriyyətini öz ətrafında birləşdirən güclü bir təşkilatın Azərbaycan dövləti ilə yaxınlığını axıra qədər qəbul edə bilmədi. Dövlətlərarası münasibətlər nə qədər yaxşı olursa olsun, prezident Putin belə məsələlərə, yəni digər dövlətlərin rusiyadaxili məsələlərdə hər hansı rol oynamasına və təsir gücü əldə etməsinə yaxşı baxmır. Ona görə də, istisna deyil ki, ÜAK-ın Azərbaycan dövlətinə və hakimiyyətinə yaxınlığı onun ləğvində xüsusi rol oynayıb".




**Ekspertin sözlərinə görə, Rusiya uzun müddətdir Azərbaycanın onun inteqrasiya layihələrinə - Avrasiya İqtisadi İttifaqına, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qoşulmasını istəyir. Azərbaycanın bu yöndə qərarı hazırda böhran dövrünü yaşayan bu qurumların canlanmasına səbəb ola və onlara yeni nəfəs verə bilər:** "Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində rəsmi Bakının tutduğu mövqe də Moskvanı narazı salır. Hazırda həll prosesi Rusiyanın liderliyi altında aparılır və Kreml maraqlıdır ki, münaqişə məhz bu dövrdə, onun maraqları maksimum təmin olunmaqla həllini tapsın. Çünki proses uzandıqca məsələyə Qərbi təmsil edən vasitəçi ölkələrin-ABŞ və Fransanın müdaxiləsi ehtimalı artır, bu isə Rusiya üçün arzuolunmaz perspektivdir. Yəni Azərbaycanın ondan tələb olunan güzəştlərə getməməsi və bunun nəticəsində prosesin uzanması Moskvanı qıcıqlandırır. Son aylarda istər Lavrovun, istərsə də onun sözçüsü Zaxarovanın bəyanatlarında biz bu qıcığı hiss edirik. Ona görə də, istisna etmirəm ki, ÜAK-ın ləğvi Azərbaycan hakimiyyətinə ilk xəbərdarlıq ola bilər. Hadisənin dövlətlərarası münasibətlərə təsirinə gəldiksə isə, şübhəsiz ki, belə bir təsir var. Ən azı, ÜAK-ın ləğvi münasibətlərdə indiyədək müşahidə olunan pozitiv atmosferə uyğun gəlmir. Eyni zamanda, hər kəs gördü ki, Rusiya tərəfi Azərbaycanın təşkilatın ləğvinə yol verilməməsi barədə çoxsaylı müraciətlərini və çağırışlarını qulaqardına vurdu. Bu da neqativ məqamlardan biridir. Digər tərəfdən, ÜAK kimi güclü diaspora qurumunun ləğvi Azərbaycanın Rusiya ilə bağlı siyasətinin zərbə alması deməkdir və rəsmi Bakının reaksiyası da bunu göstərir. Lakin bütün bunlara baxmayaraq, mən münasibətlərdə ciddi böhranın yaranacağına inanmıram. Çünki Azərbaycan tərəfi bunda maraqlı deyil".

**Ş.Cəfərli qeyd etdi ki, ÜAK-a görə Rusiyaya cavab addımları atmaq risklidir və gərginliyi artıra bilər:** "Rusiya ilə münasibətlərin pisləşməsinin hansı fəsadlara səbəb ola biləcəyini isə Bakıda yaxşı anlayırlar. Bu səbəblə, rəsmi Bakı maksimum çalışır və bundan sonra da çalışacaq ki, əlaqələr təhlükəli həddə qədər soyumasın. Lakin hər şeyə rəğmən Azərbaycan hakimiyyəti xarici siyasətdə ənənəvi balans siyasətinə sadiq qalmaq istəyir və birtərəfli seçim etməyə isti baxmır".

❑ Etibar SEYİDAĞA

# Lapşinin növbəti yaramazlığı: Azərbaycanı Avropa Məhkəməsinə verir, amma şansı yoxdur...



## Elşən Mustafayev: "O, məhkəməyə şikayət etmək əvəzinə Azərbaycana təşəkkür etməlidir"

**Azərbaycanın işğal olunmuş ərazilərində separatçılarla əlaqə quraraq, 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında ora getdiyi, sonradan Azərbaycanın ərazi bütövlüyünə qarşı təbliğat apardığı, dövlət sərhədini qanunsuz keçdiyi üçün həbs edilib 3 il azadlıqdan məhrum edilən və sentyabrın 11-də Azərbaycan prezidenti tərəfindən əfv olunan blogger Aleksandr Lapşin Avropa Məhkəməsinə şikayət hazırladığını açıqlayıb.**

O, iki gün öncə müsahibəsində bildirib ki, hazırda sənəd toplayır və Avropa İnsan Haqları Məhkəməsinə müraciət edəcək: "Həbsxana mühafizəçiləri mənimlə çox korrekt davranırdı. Adamı tək kamerada 7 ay saxlamaq isə ayrı məsələdir. Bu, qanunsuz və qəddardır. Qanunla bir adamı tək kamerada 21 gündən çox saxlamaq olmaz. Həbsxana rəhbərliyi izah edirdi ki, məni məmurlarla və generallarla bir kameraya salmaq olmaz, çünki çıxanda bundan yaza bilərəm. Quldurlarla isə məni bir kameraya salmaq, ümumiyyətlə, olmaz. Hazırda sənəd toplayıram və Avropa İnsan Haqları Məhkəməsinə müraciət edəcəyəm".

Penitensiar Xidmətin mətbuat katibi Mehman Sadıqov Lapşinin şikayətini cəfəngiyyat adlandırıb. Deyib ki, həbsdə olduğu müddətdə Lapşini həyat yoldaşı, anası, vətəndaşı olduğu ölkənin səfirliklərinin nümayəndələri bir neçə dəfə ziyarət edib: "Hətta onların istəyi ilə Lapşinin müayinəsinə kənardan həkimin gətirilməsinə də razılıq verilib. Və bu müddət ərzində onunla görüşən heç kəs bloggerin saxlanma şəraitindən, ona qarşı zoakılığın, işgəncənin olmasından bir kəlmə belə danışmayıb".


Aleksandr Lapşin

Aleksandr Lapşinin açıqlamasından belə məlum olur ki, narazılığı 7 ay təkadamlıq kamerada saxlanmasındandır, buna görə şikayət edəcək. Bəs onun Avropa Məhkəməsinə şikayətinin təmin olunması ölkəmizə hansı zərərləri vura bilər? Azərbaycan bəri başdan hansısa önləyici tədbirlər görməlidirmi?

Siyasi ekspert Elşən Mustafayev bildirdi ki, Lapşinin Avropa Məhkəməsinə müraciətinin ölkəmiz üçün heç bir təhlükəsi yoxdur. Hətta ortada ciddi, tutarlı faktlar olmasa onun müraciəti Avropa Məhkəməsi tərəfindən qəbul olunmaya bilər: "Onun şikayət üçün göstərdiyi fakt 7 ay təkadamlıq kamerada saxlanmasıdırsa, bu fakt deyil və şikayət üçün hüquqi əsas ola bilməz. Lapşinin Azərbaycanın ərazi bütövlüyünə, Qarabağ konfliktinə münasibətini eyni zamanda həbs olunduğu maddənin spesifikliyini nəzərə alsaq onun təhlükəsizliyi üçün ən uğurlu seçim tək adamlıq kamerada saxlanması olmalı idi. Buna görə Lapşin məhkəməyə şikayət etmək əvəzinə beynəlxalq təşkilatlarda Azərbaycana təşəkkür etməlidir. Beynəlxalq qurumlar da Lapşinin salamat saxlanmasını müsbət qiymətləndirməlidir. Lapşin deyəsən hələ tam anlamayıb ki, onu başqa məhbuslarla eyni kamerada saxlasaydılar nələr ola bilərdi. O, gərək Azərbaycanın müvafiq rəsmi qurumlarına minnətdar olsun, tək saxlanmasaydı başına gələnləri özü də təxmin edə bilməzdi. Əgər onun başına içəridə bir hadisə gəlsəydi o zaman Azərbaycan üçün cavab vermək çətin olardı və problemlər yaranardı. Azərbaycan hökuməti də bunu nəzərə alıb onun salamat saxlanmasının ən optimal yolunu seçmişdi. Odur ki, Lapşinin məhkəməyə müraciətindən narahat olmağa dəyməz, müraciət etsə belə, perspektivi yoxdur".

**E.Mustafayevin vurğuladı ki, əgər Lapşin həqiqətən də Avropa Məhkəməsinə şikayət etsə, orta səviyyəli bir vəkil onun haqsız olduğunu sübut edə bilər. Xüsusi önləyici tədbirlərə lüzum yoxdur. Ekspertin fikrincə, Lapşinin Avropa Məhkəməsinə şikayəti yox, onun sosial şəbəkələr, bloqlar vasitəsilə Azərbaycana qarşı mütəmadi bəyanatlar verməsi təhlükəli ola bilər. Ona görə də bu bəyanatlar mütəmadi izlənməli və bildirilməlidir ki, əgər onun fəaliyyətində Azərbaycanın təhlükəsizliyinə, ərazi bütövlüyünə xələl gətirən, fəaliyyət və ya ifadələr olacaqsa istər Azərbaycanın qanunlarına, istərsə də hamı tərəfindən qəbul olunmuş beynəlxalq normalara görə onunla bağlı müvafiq hüquqi addımlar atıla bilər. Onun bir dəfə belə fəaliyyətə görə həbs olunması ona kifayət qədər dərs olmalı idi.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

## Fəsillərin kəskin dəyişməsi hansı xəstələr üçün təhlükəlidir?

**Həkim:** "Bu dövrdə infarkt, beyinə qansızma riski artır..."


Seyfəddin Əsəd

**"Azərbaycanda yaz və payız fəsilləri tədricən sıradan çıxır. Qışdan yay fəslinə, yaydan isə qış fəslinə keçid olur". Bu sözləri Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov deyib.**

O bildirib ki, bu, buzlaşma dövrü ilə əlaqədardır: "Bu il ölkəmizdə qış fəsli sərt keçib, yaz isə soyuq və yağışlı olub. İyun ayının 15-dən havalar isinməyə başlayıb. İsti havalar indi də davam edir. Bu ildə yay fəslindən qış fəslinə keçəcəyik. İqlimdə dəyişiklər baş verir. Bu dəyişiklərin əsas səbəbi insanın özüdür. Ətraf mühit həddindən artıq çirkləndirilib, bütün ərazi tullantılarla doludur. Buna görə torpaq, su, hava nəfəs ala bilmir, özünü "yaxşı" hiss edə bilmir. Həmçinin bəzi dövlətlər tektonik silahlardan istifadə edərək zəlzələrin olmasına səbəb olurlar".

**T.Zeynalov vurğulayıb ki, bu il qış ötənilkindən sərt olacaq:** "Ötən il oktyabrın 20-dən sonra palto, plaşa keçilmişdi. Bu il də belə olacaq. Ötən qışda Bakıda, rayonların bəzilərində qar az yağmışdı, amma dağlıq yerlərdə isə əksinə idi. Bu il daha artıq qarın yağması və qışın daha sərt keçməsi gözlənilir. İlbəil havalar tədricən soyuyur. Təxminən 2030-cu ildə Azərbaycan ərazisi, xüsusilə şimal hissə buz bağlayacaq. Buzlaşma Bakıya qədər gəlməsə də, paytaxtda 15-20 dərəcə şaxta olacaq".

Təbii ki, 2030-cu ildə Azərbaycan ərazisinin, xüsusilə şimal hissənin buz bağlayacağı ilə bağlı proqnoz müzakirəyə açıq bir mövzudur və birmənalı deyil.

Lakin fakt budur ki, bu il yayın gəlişi gecikdiyi kimi, payızın da gəlişi müşahidə olunmur. Sentyabr ayına xas olmayan isti havalar davam edir. Havanın qısa müddət ərzində dəyişməsi, kəskin soyuqlaşması isə insanların səhhətinə təsirsiz ötüşmür.

Bu barədə "Yeni Müsavat"a danışan **tanınmış doktor Seyfəddin Əsəd** də təsdiqlədi ki, hər zaman yaz-yay, yay-payız dəyişikliklərində insanların səhhətində müəyyən narahatlıqlar özünü göstərir: "Buna mövsümi xəstəliklər də deyirlər. Məsələn, revmatizm, müəyyən allergik xəstəliklər havanın dəyişdiyi vaxtlarda daha çox baş qaldırır. Əsasən də payız fəslinə keçidi həmin xəstələr öncədən hiss edirlər. Yağışın yağacağını, havanın soyuyacağını öncədən bilirlər. Təsadüfi deyil ki, ölüm halları məhz yaz və payız aylarında daha çox olur. Yaz aylarında bunu havanın dəyişməsi və vitamin azlığı ilə izah edirlər. Payızda isə bunu havanın kəskin dəyişməsi isə bağlayırlar. Bu təzyiq xəstələrinə, o cümlədən sinir sisteminə, revmatik xəstələrə birbaşa təsir edir, həmin insanlarda narahatlıq artır. Havanın dəyişməsi ürək döyüntüsünə, sinir oyanıqlığına da birbaşa təsir edir. Ona görə də, iqlim dəyişikliyi xəstəliklərin artmasına gətirib çıxarır".

**Doktor vurğuladı ki, həyatında builki qədər isti keçən sentyabr görməyib:** "Gördüyünüz kimi, bu il yay da çox gec gəldi. Həmçinin, yay boyunca yağış çox az yağdı. İndi də insanlar Günəşi görüb özlərini unudurlar, geyimlərinə diqqət etmirlər. Yayda soyuqdəymə və qrip az olsa da, indi artıb. İnsanların oynaq ağrıları artıb. Bunlar kəskin iqlim dəyişikliklərinin orqanizmə təsirinin nəticəsidir. Bu dövrdə ürək-damar sistemi xəstəliklərindən və yüksək qan təzyiqindən əziyyət çəkənlərin vəziyyəti kəskinləşə bilər. Bu keçid dövrlərində insanlarda ürək infarkt, beyin toxumasının infarktı riski artır".

**Seyfəddin Əsəd risk qrupuna daxil olan həmin xəstələr bunları tövsiyə etdi:** "Bu dəqiqə həmin xəstələr zəli qoydursalar, 6 ay boyunca rahat həyatlarını yaşaya bilərlər. 6 ay onlarda nə infarkt, nə tromb ola bilməz. Revmatizm xəstələri özlərini arı ilə müalicə etdirsələr, ağrılardan azad olacaqlar, qışın nə cür gəlib-getdiyini bilməyəcəklər. Çünki orqanizmi çox güclü immunitet qazanır. Mən bu insanlara tövsiyə edərdim ki, bu xəstələr immunitetlərini qoruyub saxlasınlar, günəşi görüb aldanmasınlar. Payız fəslinin gəldiyini nəzərə alsınlar, yeldöyəndə oturmasınlar. Meyvə-tərəvəzdən çox istifadə etsinlər. Yayda yedikləri dondurmaları yeməsinlər. Çox ağır yeməklərdən imtina etsinlər, yeməkləri çox qarışdırmasınlar və bir qida ilə qidalansınlar. Stressdən və oturaq həyatdan uzaq olsunlar. Bu dövrdə insanlarda infarkt, beyinə qan sızma riski artır və revmatizm ağrıları başlayır. Həmçinin allergik xəstəliklər, bronxial asma, bronxit və dəri xəstəlikləri artır".

❑ Nərgiz LİFTİYEVA

---

**Dövlət İqtisad Universitetində (ADİU) dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin nəticəsinə dair Hesablama Palatasından daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Məlumdur ki, Hesablama Palatasının, ardından Baş Prokurorluğun araşdırdığı illərdə ADİU-nun rektoru deputat Şəmsəddin Hacıyev olub. İstintaqla üzə çıxarılan əsaslı şübhələr faktlarla, sübutlarla bərkidilərsə, ADİU-da çalışanlar vəsaitlərin mənimsənilməsidə Ş.Hacıyevin suçlu olmasını ifadələri ilə təsdiqləyərlərsə, sabiq rektor həbs oluna bilərmi?

## İstintaqa cəlb olunan təkcə Şəmsəddin Hacıyev olmayacaq - hüquqşünas

**Əyyub Kərim:** "Burada kimsə yaxasını asanlıqla kənara çəkə bilməyəcək"




Baş Prokurorluqdan musavat.com-a verilən məlumata görə, ilkin araşdırma zamanı yoxlama dövrünü əhatədən 18 may 2012-ci ildən 1 aprel 2014-cü il tarixədək olan müddət ərzində universitetin vəzifəli və digər maddi-məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək təhsil haqlarının uçotu, yığılması və bank hesabına köçürülməsi, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotda əks etdirilməsi ilə bağlı ağır nəticələrə səbəb olan ciddi qanun pozuntularına yol verilməsi, eləcə də külli miqdarda vəsaitin uçotdan yayındırılmasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 179.3.2-ci (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**"Femida" qəzetinin baş redaktoru, tanınmış hüquqşünas Əyyub Kərim** deyir ki, Baş Prokurorluqdan başlanmış cinayət işi Ş.Hacıyevə yaxşı perspektiv vəd etmir: "Hazırda fakt üzrə cinayət işi davam edir. İstintaq nəticəsində təsdiqlənərsə ki, ADİU-da mənimsəmələr sabiq rektorun dövründə baş verib, rektor kimi Şəmsəddin Hacıyevin kriminal xarakterli əməlləri var, bu halda Baş Prokurorluq təqdimatla Milli Məclisə müraciət edəcək. Faktları, sübutları ortaya qoyub Şəmsəddin Hacıyevin mandatdan məhrum olunması məsələsini qoyacaq. Təqdimatla Milli Məclis razılaşarsa, onun mandatı ləğv olunacaq. Hazırda Şəmsəddin Hacıyev Milli Məclisin üzvüdür. Toxunulmazlığı var. Ancaq mandatı ləğv olunacaqsa, Şəmsəddin Hacıyev də sıravi vətəndaşlar kimi istintaqa çağırıla, həbs oluna bilər".

**Ə.Kərim deyir ki, Ş.Hacıyevlə yanaşı onun rektorluğu dövründə ADİU-da çalışanlar da istintaqın diqqət mərkəzindədir:** "Sözsüz ki, istintaqa cəlb olunan təkcə Şəmsəddin Hacıyev olmayacaq. Onun müavinləri, yeyinti və mənimsəmələrdə iştirak edən dekanlar, tikinti işləri ilə məşğul olan yaxınları və digər şəxslər həbsə alınacaqlar. Söhbət kriminal xarakterli nöqsanlardan gedir. Burada kimsə yaxasını asanlıqla kənara çəkə bilməyəcək. Bu şəxslərin ifadələrini alıb Şəmsəddin Hacıyevlə üzləşdirəcəklər. Bundan sonra sabiq rektorun məsuliyyətə cəlb olunma məsələsi həll oluna bilər. Hələlik araşdırmalar gedir. Yaxın gələcəkdə istintaqın nəticəsi bilinəcək. Ortada isə çox ciddi faktlar var. Bu məsələ hərtərəfli araşdırılmalıdır".

Ə.Kərim deyir ki, 179-cu və 308-ci maddələrlə həbs olunan şəxslərə məhkəmə praktikasında tətbiq olunan cəzaları da açıqlayıb. Bildirib ki, 179.3.2-ci - qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama maddəsi üzrə 7 ildən 12 ilədək, 308.2 maddəsi - vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda 3 ilədək müəyyən vəzifə tutmaqdan məhrum edilməklə 3 ildən 8 ilədək cəzalandırılır.

Hər 2 maddə üzrə kifayət qədər ciddi cəzalar nəzərdə tutulur. Bu maddələrlə başlanan cinayət işində hökmən həbslər olacaq. Kimlər həbsə gedəcək, kimlər qalacaq bunu istintaqın gedişatında üzə çıxan faktlar, sübutlar müəyyən edir. Hər iki maddə ağır nəticələrə səbəb olan cinayətlərin ortada olduğunu təsdiqləyir".

*Şəmsəddin Hacıyev istintaqa cəlb olunarsa və istintaqla müəyyən edilmiş vurulan ziyanı ödəyərsə, ona qarşı həbslə əlaqəli olmayan cəza tətbiq oluna bilərmi?*

**Ə.Kərim deyir ki, qanunların humanistləşdirilməsi o demək deyil ki, cinayət törətmiş şəxslər törətdikləri əmələ görə cəzasız qalırlar:** "Oğru mağazaya girsin və ayaqqabını oğurlayıb qaçsın. Sonradan ifşa olunsun və ayaqqabını qaytarsın ve ya onun dəyərini ödəsin. Onu azad etmək olar? Əlbəttə ki, yox, onu oğurluq əməlinə görə mühakimə edib cəzalandırmaq lazımdır. Bir qədər sərt deyil, daha yüngül cəza verməkolar. Amma mütləq cəzasını almalıdır ki, digərləri də ona baxıb oğurluqdan çəkinsinlər. Deməsinlər ki, filankəs oğurladı, pulunu ödədi və azadlıqda qaldı, biz də gedək oğurlayaq. Cəza siyasətinin humansitləşdirilməsi cinayət törətmiş şəxslərin cəzadan kənar qalması demək deyil. ADİU ilə bağlı üzə çıxan faktlar da sıradan faktlar deyil, həbslər olacaq".

Qeyd edək ki, Hesablama Palatasının Azərbaycan Dövlət İqtisad Universitetinə (ADİU) ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrası hesabatı maraqlı faktları üzə çıxarıb. Köhnə rektor, hazırda deputat olan Şəmsəddin Hacıyevin ADİU-ya rəhbərliyi dövründə baş verən böyük qanunsuzluqların araşdırılacağı gözlənilir. Hesablama Palatasının Kollegiyası ADİU tərəfindən təhsil haqqı üzrə daxilolmaların uçotunun aparılması, təhsil haqlarının yığılması və universitetin bank hesabına köçürülməsi sahəsindəki nöqsanların ciddiliyini, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotdan yayındırılmasını nəzərə alaraq qanunamüvafiq tədbirlərin görülməsi üçün müvafiq materialların Baş Prokurorluğa göndərilməsi barədə qərar qəbul edib. ADİU-nun ölkənin ən korrupsiyalaşmış təhsil ocağı olması barədə məlumatlar yeni deyil. Ölkənin aparıcı ali məktəblərindən olan ADİU-da 2014-cü ilin martında rektor dəyişikliyi olsa da, sistemdə hər hansı müsbətə doğru irəliləyiş müşahidə olunmayıb. Şəmsəddin Hacıyevin rektorluğu dövründə bu gün gündəmi zəbt edən məlumatlar mətbuatda dəfələrlə tirajlanmışdı. Həmin dövrdə müvafiq qurumaların diqqətindən kənar qalmışdı.

❑ E.MƏMMƏDƏLİYEV

---

## Faytonçu" Nazim efirdə jurnalistlə dalaşdı

"Mənim günümə sənin əzizlərin düşsün..."

**"Faytonçu" ləqəbi ilə tanınan müğənni Nazim Pişyari və jurnalist Tahirə Məmmədqızı arasında qalmaqal yaşanıb. Musavat.com-un məlumatına görə, ARB TV-nin "Səhər-Səhər" verilişində qonaq olan jurnalistlə müğənninin sözləri çəpləşib.**

Nazim onu səhv əməliyyat edən və səhhətində ciddi problemlər yaranmasına səbəb olan həkimdən danışıb. Tahirənin həkimi müdafiə etməsi müğənnini qıcıqlandırıb. Nazim



əsəbiləşərək jurnalistin üstünə hücum çəkib. Daha sonra Elgiz və digər qonaqlar tərəfləri sakitləşdirməyə çalışıb. N.Pişyari Tahirəyə bunları deyib: "Jurnalistsən, get öz media qurumundan yaz, burada nə işin var? Elman Əzimovun niyə tərəfini tutursan? Onun səhvi yoxdursa, niyə 3 dəfə əməliyyat olundum? Elmanın üzündən 12 saat narkoz qəbul etdim. Kaş mənim günümə sənin əzizlərin düşsün. Onda məni başa düşərsən".

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Yoxsul işğalçı - Kreml Ermənistanı hara kimi bəsləyəcək?

**Dünyada işğalçı ölkələr az deyil. Əfsus ki, onlardan ikisi bizimlə həmsərhəddir - Ermənistan və Rusiya. İkisinin də ərazi bütövlüyümüzə və suverenliyimizə birbaşa dəxli var - mənfi planda təbii ki. Çünki Azərbaycan torpaqlarının ortaq işğalçılarıdır. Rusiya üstəlik, Gürcüstan, Moldova və Ukraynaya qarşı işğalçılıq siyasəti yürüdən və onların ərazilərinin bir qismini işğal və ilhaq edən bir dövlətdir.**

## Azərbaycan ərazilərinin şərikli işğalçısı olan Ermənistan Moskvanın girovluğundan həm narazıdır, həm də razı; **Levon Ter-Petrosyan:** "Ermənistan adamların yaşamadığı otlağa çevriləcək..."

Ancaq işğalçı Ermənistanla işğalçı Rusiya arasında bitr prinsipial fərq var: Ermənistan Rusiyanın dəstəyi olmadan işğal davam etdirə bilməz. Ona görə ki, əhalisi acından ölən, ordusuna çağırışçı problemi yaşayan cırtdan bir ölkədir, faktiki, Rusiyanın ucqar bir quberniyası, buyruq quludur.

Məhz Rusiya amilinə ("Arxalı köpək qurd basar"), Moskvanın dediyi ilə oturub-durduğuna görə də illərdir ərazilərimizin bircə qarışını da geri qaytarmayıb. İşğalçı ölənin başçısı, Xocalı canisi Serj Sərkisyanın iki gün öncə BMT Baş Məclisində etdiyi hıdyan xarakterli, böyük dövlətlərin liderlərinə xas arxayın çıxışı da yenə eyni səbəblə - Rusiya amili ilə bağlı idi.

Gerçəkdə isə işğalçı Rusiyadan fərqli olaraq, işğalçı Ermənistanın daxli durumu acınacaqlı olaraq qalır, vassal ölkə ildən-ilə daha sürətlə boşalır, daha dərin iqtisadi bataqlığa yuvarlanır. Di gəl, hələ ki Rusiyaya Azərbaycana qarşı belə bir işğalçını bəsləyib saxlamaq sərf edir. Qısası, Ermənistan illərdir Rusiyanın əlindəki oyuncaq işğalçı rolundadır. Ancaq Kreml Ermənistanı hara kimi bəsləyəcək?




Ölkənin az-çox ağıllı başları isə təhlükəni, reallığı görür və vaxtaşırı həyəcan siqnalı çalırlar. Amma çifayda? 1998-ci ildə hakimiyyəti Levon Ter Petrosyandan zorla - çevriliş yolu ilə alan kriminal "Qarabağ klanı" öz xalqını girov və dünyadan təcrid vəziyyətində saxlamaqda davam edir.

*****

"Ölkəmiz cəhənnəmə çevrilib. Həm kəndlərdə, həm də şəhərlərdə əhalinin 98 faizi yoxsulluq içərisində yaşayır". Bunu Ermənistanın Qarni qəsəbəsində seçicilərlə görüşdə ölkənin keçmiş prezidenti Levon Ter-Petrosyan bildirib (Asvision az.). O, çıxışında ölkənin hazırki hakim elitasını sərt tənqid edərək onları oğru və əclaf adlandırıb.

"Ölkə rəhbərliyində xalqı fəlakətə sürükləyən oğrular, fırıldaqçılar, əclaflar, satqınlar əyləşib. Bu sadəcə sözlər deyil. Bunu sizə sübut edəcəyəm: Seçkilərdə sizə səs üçün 5-10 min dram (25 dollara) rüşvət vəd etdilər. Amma həftə ərzində onlar bu pulları özlərinə qaytaracaqlar. Çünki, rüşvət verən adamların mağazaları və müxtəlif bizensləri mövcuddur. Onlar qiymətləri qaldıracaqlar və siz məcbur olub müxtəlif malları baha qiymətə alacaqsınız", - deyə sabiq prezident qeyd edib.

Onun sözlərinə görə, Ermənistanda polis və məhkəmələr təzyiq alətinə çevrilib: "Onlar öz xalqına qarşı Stalin KQB-sindən daha qəddardırlar. Stalin insanları Yakutsk, Sibir, Altaya zorla sürgün edirdi. Amma Serj Sərkisyan insanları o həddə çatdırıb ki, artıq onlar əsir düşərgələrində əziyyət çəkən babalarının yerlərinə könüllü gedir".

Ter-Petrosyan həmçinin digər həmkarı Serj Sərkisyan sələfi Robert Koçaryan haqqında da danışıb: "1998-ci ildə Köçəryanın prezidenti olduğu zaman Ermənistanı bir milyon adam tərk edib. İndi isə təsəvvür edin ki, qarşıdan gələn parlament seçkilərində Serj Sərkisyan yenə qalib gələcək və onun seçkilərdə qələbəsinin təmin edilməsi üçün yaxın illərdə daha bir milyon insan Ermənistanı tərk edəcək. Və bu ölkədə kim qalacaq? O otlağa çevriləcək".

*****

Necə deyərlər, artıq şərhə ehtiyac qalmır. Amma yenə var. Söhbət ondan gedir ki, Ermənistan Rusiyanın siyasi-hərbi girovluğundan çıxmaq üçün ciddi səylər göstərməsə, bədbəxt işğalçının durumu daha da ağırlaşacaq. Bu isə etiraf edək ki, elə də asan deyil.

Bu xüsusda müdafiə naziri Vigen Sərkisyanın İrəvanda keçirilmiş Ermənistan-Diaspora Forumundakı çıxışında dediyi "istənilən halda Rusiya bizim etibarlı müttəfiqimi olaraq qalır" sözlərinin forum iştirakçılarının tənqidinə tuş gəlməsi diqqət çəkməklə yanaşı, təsadüfi sayıla da bilməz.

**Musavat.com-un məlumatına görə, armenianreport.com-da bununla bağlı getmiş tənqidi məqalədə deyilir:** "Diaspora çox gözəl başa düşür ki, Rusiya hazırkı şərtlərdə Ermənistanın etibarlı və sadiq müttəfiq ola bilməz və bunu istəmir. Moskva açıq şəkildə Azərbaycan müasir silahlar satır və bu zaman əla bilir ki, həmin silahlar özünün Cənub Qafqazdakı yeganə müttəfiqinin - Ermənistanın əleyhinə işlədilə bilər. İştirakçılar ara söhbətlərdə bizə açıq deyirlər: müdafiə naziri Rusiya ilə hansı ittifaqdan dəm vurur? Rusiya çoxdan Ermənistanın müttəfiqi deyil. Moskva güc yolu ilə Azərbaycan torpaqlarının qaytarılmasına hazırlaşır. Ermənistanın dişsiz və təşəbbüssüz KTMT-də nə işi - əgər bu qurumdan o, heç vaxt, heç bir kömək almayacaqsa? Biz Qərbə, sivilizasiyaya doğru getməliyik. Axi məhz Kremlin hesabına bu dəstə ("Qarabağ klanı") hakimiyyətdədir. Öz mövqelərinə görə onlar məhz Moskvaya minnətdar olmalıdırlar. O üzdən də onlar Moskvadan olan bütün incilikləri və şıltaqlıqları udmaq zorundadırlar. Onlar Kremlə tabedirlər, öz xalqına yox. Və Vigen Sərksiyan da konfransda növbəti dəfə sübut elədi ki, onlar kimin əlaltıları və tərənnümçüləridir".



## Erməni deputat Bakıda: "Gəlin, Qarabağdan danışmayaq"

**"Burada Dağlıq Qarabaq mövzusunu müzakirəyə çıxarmayaq". Bunu Bakıda Milli Məclis, Avronest Parlament Assambleyasının Sosial məsələlər, Təhsil, Mədəniyyət və Vətəndaş Cəmiyyətləri üzrə komitəsi, Əhali və İnkişaf üzrə Avropa Parlament Forumunun və BMT-nin Azərbaycandakı ofisinin birgə təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri üzrə gender bərabərliyinin və qadın sağlamlığının təşviqinə dair Şərq Tərəfdaşlığı Ölkələri Parlamentlərinin cəlb edilməsi" mövzusunda keçirilən konfansda Ermənistan parlamentinin Avronest PA-da nümayəndə heyətinin rəhbəri Armen Aşotyan deyib (Report).**

Deputat tədbirdə antierməni təbliğatı aparıldığını iddia edib. Onun sözlərinə görə, Avronest PA Ermənistan üçün üçün çox vacibdir: "Çox sağ olun ki, bizi dəvət etmisiniz. Burada olmağımız şansdır".

Azərbaycan təhsil nazirinin müavini Ceyhun Bayramov isə bildirib ki, Azərbaycanda xalqlar arası dözümsüzlüyə dövlət səviyyəsində yol verilmir: "O cümlədən erməni xalqına nifaq və dözümsüzlük Azərbaycan məktəblərində təbliğ edilmir. Biz Azərbaycan torpaqlarının işğalı faktından danışırıqsa, problemin kökünü başa düşməliyik. İnsanlar bütün tarixi həqiqətləri bilməlidirlər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017

# "Dəmir günbəz"imiz "İsgəndər" təhlükəsinə qarşı

## Elçin Mirzəbəyli: "Kəmərləri hədəfə almaq dünyanı idarə edən nəhəng kapitalı hədəfə almaq, özünə ölüm hökmü kəsmək demək olar"



Elçin Mirzəbəyli

**Müdafiə naziri Zakir Həsənovun çoxgünlük uğurlu İsrail səfəri ətrafında gedən müzakirələr davam edir. Müdafiə nazirimizin səfəri çərçivəsində "Dəmir günbəz" müasir raketdən müdafiə sistemlərinin alınması məsələsinin də gündəmdə olduğu bildirilir.**

Məlumdur ki, təcavüzkar Ermənistan öz himayədarı Rusiyadan aldığı "İsgəndər" raketləri ilə ölkəmizi, strateji neft-qaz kəmərlərimizi, Mingəçevir SES-i vuracağı ilə hədələyir. Məhz onları yerində otuzdurmaq üçün rəsmi Bakının hərəkətə keçdiyi, İsraildən "Dəmir günbəz"ləri alacağı bildirilir. Ermənilər unudurlar ki, Naxçıvandan cəmi 50 km məsafədə Metsamor Atom Elektrik Stansiyası yerləşir ki, Azərbaycan onu vuracağı təqdirdə Ermənistan ümumiyyətlə, xəritədən silinər.

Qərbin də neft kəmərlərimizi vurmaq üçün ermənilərə heç zaman imkan verməyəcəkləri bir reallıqdır. İpləri Rusiyanın əlində olan ermənilər isə Kremlin icazəsi olmadan "İsgəndər"dən istifadə edə bilməzlər.

**Politoloq Elçin Mirzəbəyli** İsrailin bu silahları Azərbaycana satacağını real görür: "Azərbaycanın İsraildən "Dəmir günbəz" Hava Hücumundan Müdafiə Sistemləri (HHMS) aldığı, yaxud almaq niyyətində olduğu barədə xəbərlər yeni deyil. Rusiya Ermənistanı "İsgəndər" Operativ-Taktiki Raket Kompleksi (OTRK) ilə təmin etdikdən dərhal sonra "Dəmir günbəz" HHMS ilə bağlı məlumatlar yayıldı və bu məlumatlar təsdiq olunmasa da, təkzib də edilmədi. Bu baxımdan hesab edirəm ki, İsrailin Azərbaycana "Dəmir günbəz" HHMS satdığı, yaxud satacağı tamamilə real görünür. Müdafiə nazirinin İsrailə səfəri, həmçinin İsrailin baş nazirinin BMT Baş Assambleyasında Azərbaycanla əməkdaşlıqdan danışması iki ölkə arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Hazırda Azərbaycanın "Dəmir günbəz"lə təchiz olunması üçün heç bir maneə yoxdur. Nəzərə alsaq ki, Ermənistan mütəmadi olaraq Azərbaycan ərazisindən keçən neft və təbii qaz ixrac boru kəmərlərini təhdid edir, kəmərlərin təhlükəsizliyinin təmin olunması təkcə rəsmi Bakının deyil enerji layihələrində iştirak edən bütün tərəflərin marağında olmalıdır. Bu layihələrdə isə dünyanın nəhəng dövlətlərinin təminatı ilə transmilli korparasiyalar iştirak edir. Ermənistanın Azərbaycan ərazisindən keçən kəmərləri vuracağı real görünmür. Buna cəhd olunarsa, Ermənistan yer üzündən silinə bilər. Kəmərlərə real təhdid o zaman yarana bilər ki, dünyanın enerji bazarındakı ənənəvi rolundan məhrum olan, sanksiyalarla sıxışdırılan Rusiya Ermənistandan bu məsələdə də öz məqsədləri üçün istifadə eləsin. Bu isə artıq qlobal qarşıdurmalara yol aça bilər və nəticəsi təhdid edən tərəflər üçün acınacaqlı olar".

**Politoloq "Dəmir günbəz"in əhəmiyyətindən də söz açdı**: "Dəmir günbəz" taktiki hava hücumundan müdafiə sistemidir, 7 km-dən 70 km-dək idarə olunmayan taktiki raketlərdən müdafiə üçün nəzərdə tutulub. Hər batareya 150 kvadrat kilometri müdafiə etmək gücündədir. 2011-ci ilin martından 2014-cü ilin iyulunadək İsrail ərazisindəki sistemlər 1200 raketi zərərsizləşdiriblər. Qeyd edim ki 2011-2013-cü illərdə sistem daha da təkmilləşdirilib və bu gün dünyada öz analoqları ilə müqayisədə xeyli üstünlüyə malikdir. Azərbaycanda "Dəmir günbəz"in olması ölkəmizə müdafiə sahəsində çox böyük üstünlüklər verir. Bu müharibənin eskalasiyası zamanı mülki əhalinin və infrastrukturun təhlükəsizliyinin maksimum təmin olunması deməkdir. "İsgəndər" Operativ-Taktiki Raket kompleksidir, hava hücumundan müdafiə sistemi deyil. "Dəmir günbəz" adi halda istifadə olunacağı təqdirdə "İsgəndər" raketlərini zərərsizləşdirmə gücündədir. "İsgəndər" raketləri 500 km-dək olan məsafəni sıradan çıxarmaq üçün nəzərdə tutulub. Mütəxəssislər yaxın məsafədə bu raketdən istifadənin uğurlu nəticə verməyəcəyini bildirirlər. Onu da qeyd edim ki, bir sıra mənbələr Azərbaycanla İsrail arasında 2013-cü ildə imzalanmış müqaviləyə əsasən "Dəmir günbəz"in 2016-cı ildə ölkəmizə təhvil verildiyini bildirirlər. Ermənistan Rusiyanın razılığı olmadan "İsgəndər" raketlərindən istifadə etmək imkanına və səlahiyyətinə sahib deyil. "İsgəndər" raketləri Ermənistan ərazisində yerləşən Rusiya silahlarıdır. Raketlərin 500 km, bəzi ekspertlərin rəyinə görə isə hətta 2 min km məsafəni vurmaq üçün nəzərdə tutulduğu diqqətə alınarsa silahın Ermənistanın hədəflərinə aid olmadığı bir daha təsbit olunar. Kəmərləri hədəfə almaq dünyanı idarə edən nəhəng kapitalı hədəfə almaq deməkdir. Bu isə özünə ölüm hökmü kəsmək anlamına gəlir".

❑ Cavanşir ABBASLI

# Yaxın Şərqi silkələyəcək referenduma iki gün qaldı

## Barzaninin müxalifləri referenduma qarşı çıxdılar, Bağdad və Ərbil Qərbin yeni təkliflərini müzakirə edir, referendum bölgədə savaşa gətirə bilər...

**İraq kürd muxtariyyəti məclisinin sədri və müxalif Qoran Hərəkatının sədri Yusif Məhəmməd müstəqillik referendumunun ləğv olunması çağırışı edib. BBC-yə verdiyi müsahibədə Y.Məhəmməd referendumun qanunsuz olduğunu bildirib. Eyni zamanda qeyd edib ki, muxtariyyət beynəlxalq qurumların vasitəçiliyi ilə Bağdadla danışıqlara getməlidir.**

Xatırladaq ki, hazırda İraq kürd muxtariyyətinin parlamenti faktiki olaraq fəaliyyət göstərmir. 2015-ci ildə daha əvvəl səlahiyyətlərini iki il uzadan muxtariyyət lideri Barzani səlahiyyətlərinin daha iki il artırılmasını tələb edərkən, bu tələb parlamanetdəki əleyhdarlarının sərt etirazı ilə qarşılanıb. Müxaliflər, xüsusən də Qoran Hərəkatı üzvləri Barzaninin iqtidarı seçki keçirmədən qanunsuz olaraq əlində saxlamasına etiraz edib. Qoranın əsas mərkəzi hesab olunan Süleymaniyyə şəhərində iqtisadi böhran və maaşların gecikməsinə etiraz edənlər Barzaninin Kürdüstan Demokrat Partiyasının binalarını yandırıb, bir neçə nəfərin ölməsi ilə nəticələnən toqquşmalar olmuşdu.

Bu hadisədən sonra Qoran lideri Məhəmməd Yusif paytaxt Ərbilə buraxılmayıb ardınca isə Barzani ümumiyyətlə, parlamenti bağlayıb. Bu səbəbdən də hazırda faktiki olaraq 4 ildir Barzaninin seçkilərinin vaxtı keçib, parlament isə bağlanıb.

Yusif Məhəmməd deyib ki, referendum böhranın əsas səbəbi Barzaninin hakimiyyətdən əl çəkmək istəməməsi ilə bağlıdır. O deyib ki, daha əvvəl, yəni 2012 və 2013-cü illərdə də referendum mövzusu aktuallaşmışdı, ancaq sonradan gündəmdən çıxdı. İndi isə payızda muxtariyyət rəhbəri postuna seçkiləri gözlənildiyi bir vaxtda yenidən referendum məsələsi gündəmə gəlib: "Referendumla parlament böhranı arasında bağ var. Nə zaman prezident seçkiləri gündəmə gəlir, həmin vaxt referendum mövzusu qabardılır".

Kürd parlamentinin sədri deyib ki, proseslərin bu şəkildə qızışsa bütün bölgəni "yandıra" bilər. Y.Məhəmmə deyib ki, Barzani referendum qərarını bütün siyasi qüvvələrin iştirakı ilə qəbul etməyib: "Bu səbəbdən də referendum legitim sayıla bilməz. Bu referendum xalqı bir araya gətirmək əvəzinə daha da böldü. Bu səbəbdən də indiki mərhələdə təxirə salınması daha faydalı olardı. O təklif edib ki, kürd muxtariyyəti rəhbərliyi beynəlxalq qurumların vasitəçiliyi ilə Bağdad hökuməti ilə danışıqlara getməlidir. Çünki indi yaranmış problemlərin tək həll yolu danışıqlardır.



Y.Məhəmməd deyib ki, hazırda Kürdüstan və İraq hökumətləri arasında əsas problemlər mübahisəli ərazilər, Peşmərgə (Kürd silahlı gücləri - K.R.) ilə bağlı anlaşmazlıqlar və neft yataqlarının istismarı məsələləridir. Bunun üçünsə Bağdadla danışmaq lazımdır, deyə Y.Məhəmməd bildirib. Eyni zamanda əlavə edib ki, kürdlərin alacağı istənilən hüquqi, siyasi status - federasiya və ya konfederasiya, müstəqillik - kürd xalqının maraqlarına xidmət etməli, zərər vurmamalıdır.

Qeyd edək ki, cümə gününə qədər hələ də Barzani referendum qərarında israr edib. Ancaq BBC-nin rəsmi mənbələrdən əldə etdiyi məlumata görə kürd muxtariyyəti və Bağdad hökuməti hazırda Qərb dövlətlərinin irəli sürdüyü təkliflər paketini müzakirə edir. Əgər uyğun qərar olarsa referendumun ən sonda təxirə salınması mümkündür. Məsələ ondadır ki, Barzani özü də açıq şəkildə bəyan edib ki, Qərb ölkələri referendumun təxirə salınması və ya tamamilə ləğv olunması təklifinin qarşılığında ciddi və əlverişli təklif irəli sürməlidir. Doğrudur, amerikalılar Barzaniyə "uyğun" təkliflər verdiklərini bəyan etsələr də, kürd lideri bununla qane olmayıb. Ancaq hələlik ekspertlər son günə qədər ümid qaldığını. Barzaninin geri çəkilə biləcəyini qeyd edirlər.

Məsələ ondadır ki, referendum Barzaninin iddia etdiyi formada baş tutsa, Bağdad və Ərbil arasında silahlı qarşıdurma qaçılmaz olacaq. Çünki Barzani faktiki olaraq İraqın kürdlər yaşayan bütün bölgələrində səsvermə keçirir. Bu isə İraqın suverenliyinin təhdid olunmasıdır. İraq Konstitusiyasında kürd muxtariyyətinin ərazisi təyin olunub. Ancaq son illərdə, xüsusən də İŞİD-ə qarşı müharibə zamanı kürdlər böyük əraziləri ələ keçiriblər və bunu geri qaytarmaq istəmirlər.

Ancaq kürdlərin müstəqillik arzusu yalnız İraq hakimiyyəti deyil, eyni zamanda İran və Türkiyəni də narahat edir. Çünki regionda kürd dövlətinin yaranması bölgədə yeni ərazi mübahisələrinə səbəb olacaq, həll olunmayan münaqişəyə səbəb olacaq. Digər tərəfdən, bu hadisə kürd separatizmini alovlandıracaq. Türkiyədə və İranda əhəmiyyətli sayda kürd azlığı var və bunlar siyasi və hərbi təşkilatlanma keçiblər. Kürd dövləti bu ölkələrdəki qrupları hərəkətləndirəcək. Buna görə də indi İran və Türkiyə də açıq şəkildə referenduma qarşı olduqlarını bəyan ediblər. Türkiyə baş naziri Binali Yıldırım deyib ki. kürdlərin referendumuna beynəlxalq dəstək yoxdur. Türkiyə dövləti də müxtəlif kanallarla referendumu ləğv etməyə çağırıb. Yıldırım deyib ki, referendumun baş tutması Türkiyə üçün milli təhlükəsizlik məsələsidir. Baş nazir deyib ki, Türkiyə İraq və Suriyanın ərazi bütünlüyünün pozulmasına qarşıdır və bu baş verərsə, beynəlxalq anlaşmalar əsasında lazımı addımlar atılacaq. Yıldırım deyib ki, bu qərar kürdlərə də uğur vəd etmir. Bu səbəbdən də o, referendumun son anda təxirə salınacağına ümid etdiklərini deyib. Eyni zamanda əlavə edib ki, parlament Türkiyənin cənub sərhədlərində ölkənin təhlükəsizliyinə zidd olan fəaliyyətlərin qarşısını almaq üçün ordu göndərmək haqqı verən layihə hazırlayır. Bu qanun oktyabrın 30-dan başlayaraq bir il qüvvədə olacaq.

**Artıq referenduma iki gün qalsa da, təxirə düşməsi ehtimalı hələ də qalır. Ancaq referendumun baş tutması istənilən halda özü ilə gərginlik, hərbi qarşıdurmaya səbəb ola bilər. Bu isə bütövlükdə Yaxın Şərqdə yeni situasiyanın yaranması deməkdir. Hələliksə hər kəs Qərbin kürdlərə alternativ təkliflərin təsirini gözləyir.**

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 196 (6810) 23 sentyabr 2017




# "26-lar"ın qəbrini ziyarət edənlər barədə yeni faktlar - qalmaqal böyüyür

**Bir qrup xainin Suraxanıda yerləşən "26 Bakı Komissarı"nın qəbrini ziyarət etmələri ölkə gündəminə bomba kimi düşüb. Çörəyini yedikləri, suyundan içdikləri ölkəyə xəyanət edən bu şəxslər mətbuat və sosial şəbəkələrdə ən kəskin şəkildə qınanır, tənqid olunurlar.**

Hər keçən gün müzakirələrə yeni-yeni tanınmış simalar qoşulur. İndiki vaxtda kommunistlərin fəallaşmasının təsadüfi olmadığı, onların arxasında Azərbaycana düşmən olan xain əllərin dayandığı qeyd olunur.

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı** "Yeni Müsavat"a açıqlamasında həmin xəyanətkarlar haqqında kifayət qədər sərt danışdı: "Bu qədər riyakarlıq, şərəfsizlik ola bilməz. 13 min Bakıda, 10 min Şamaxıda, Qubada və digər yerlərdə günahsız insanları qırasan, Azərbaycanı qan gölünə döndərəsən, bir əsr sonra səni müdafiə edən şərəfsizlər peyda olsun. Suraxanıya ziyarətə gedənlər yer üzünün ən şərəfsiz, alçaq adamlarıdır. Onların azərbaycanlılara heç bir dəxli yoxdur, ermənilərin tör-töküntüləridir. Erməni olmasalar belə, qəlblərində insanlıqdan bir nişanə də yoxdur. Bu cür şəxslərə qətiyyən aman vermək olmaz. Bunlar 70-100 ildən sonra da hələ həqiqəti başa düşməyiblər. Demək bunlar qansız və şərəfsiz adamlardır. Biz yatdıqca, bəzi şeyləri vaxtında həll etmədikdə, sonra o üstümüzə gəlir, başımıza qalxır. Vaxtında bunların hamısı təmizlənməli idi. "26-lar"ın başdan ayağa cinayətkar olduqlarını tarix göstərir. Niyə Bakıda günlər öncəyə qədər onların adı bir küçədə qalmalı idi? O komissarların çoxu ermənidir. Bizdəki hafizəsizlik, hər şeyə dözmək sonunda düşmənin öz ocağımızın başında ayaq açmalarına səbəb olur. Gərək hafizəsizlik, milli ideallara diqqətsizlik də cəzalandırılsın. Biz düşmənlə üz-üzəyik, düşmən də BMT-nin kürsüsündən bizə meydan oxuyur. Halbuki Ermənistanın paytaxtı İrəvan da bizimdir. Bunları zaman-zaman dilə gətirmədikcə, bunlar baş verəcək. Düzdür, prezident bunları deyir. Amma daha geniş kampaniya aparılmalıdır. Ermənistandan köçənlərin pasportlarında erməni vətəndaşı olmaları dəyişdirilib. Səhəri gün Ermənistana sonuncu dəfə 250 min azərbaycanlının köçürüldüyünü necə sübut edəcəyik. Bir erməni barmağı Azərbaycanda bu şeyləri himayə edir. Biz də buna biganəyik. Soyadların dəyişdirilməsi ilə bağlı qərar var. Amma 25 ildir buna əməl edilmir. Bunların ucu gəlib "26-lar"ın üstünə ziyarətə gedənlərə çatır. Rusdillilər öz tarixlərindən xəbərsizdirlər. Rus mədəniyyəti atmosferində təbliğ olunan azərbaycanlıların içindən ermənilərin üstünə gedənlər də tapılacaq. Çünki onlara o tarix öyrədilir, Cavad xanın, Məhəmməd Əmin Rəsulzadənin deyil. O cəsarəti dediyim təlim-tərbiyədən tapırlar. Rus dilini heç zaman öyrənməyin əleyhinə olmamışam, amma övladlarımızı öz ana dilində oxutmağımızı istəmişəm".



**Sabir Rüstəmxanlı:**
"Ziyarətə gedənlər Yer üzünün ən şərəfsiz adamlarıdır"



**Rauf Qurbanov:**
"Onlara yoldaş deməyə heyfim gəlir"

**"26-lar"ın qəbrini ziyarət edənlərin Azərbaycan Kommunist Partiyasının üzvləri olduğu barədə də söz-söhbətlər gəzir. Məsələni dəqiqləşdirmək üçün AKP sədri Rauf Qurbanovla əlaqə saxladıq. Partiya sədri deyilənləri təkzib etdi:** "Azərbaycanlıların bir məsəli var. "Söz var adamı dağa qaldırar, söz var adımı dağdan endirər". Həmin şəxslərin partiyamızla heç bir əlaqələri yoxdur. Onlara yoldaş deməyə heyfim gəlir. Sadəcə olaraq, bunlar partiyamız adında təşkilat yaradıblar, tədbirlər keçirirlər. Onlar bu əməlləri ilə kommunist ideyalarına hörmətsizlik edirlər. O şəxsləri şəxsən də tanımıram. Ziyarət edənlərdən Ədalət Abdinov adlı şəxslə sosial şəbəkələrdə dost olduq. Bir dəfə mənimlə görüşdü, partiya sıralarına üzv olmaq üçün. Şəklini gətirmişdi ki, məni üzv edin, biletimi verin. Dedim ki, partiya sıralarına qəbul üçün sədrə deyil, Mərkəzi Komitənin Bürosuna müraciət edirlər. O tələsik addım atıb, partiyada özünə yer etmək istəyirdi. Sonradan əleyhimə çıxış etməyə başladı. Bu insanlar internetin imkanlarından istifadə edib, təxribatla məşğuldurlar. "Yeni Müsavat"da deputat Fazil Mustafanın mövqeyinə rast gəldim. Kommunizm ideyalarına qatı millətçilik prizmasından yanaşmaq, partiya üzvlərinə ikrah hissi ilə yanaşmaq bu yalnız və yalnız faşistlərə aid bir ideologiyadır. Tarixə baxsaq görərik ki, yalnız faşistlər kommunistlərə qarşı bu hisslə yanaşıblar. Hakimiyyətdə olduğu müddətdə bu ideologiyanın daşıyıcıları səhvlər buraxa bilərlər. Bunun ideologiyaya nə dəxli var? Bu gün bütün dünya oktyabr inqilabının 100 illiyini keçirmək ərəfəsindədir. Mən də partiya sədri kimi Rusiyadakı həmin tədbirlərə qatılacam. Öz partiyalarını Biləcəridən o tərəfə tanımırlar. Ziyarət edənlər deyil, məsələyə münasibət bildirən deputatın mövqeyi məni təəssüfləndirdi. Mən Azərbaycan dövlətinin yaranmasında fəaliyyəti olan bütün şəxslərə abidələr qoyulmasının tərəfdarıyam. Biz bu abidələrlə gələcək nəsillərə nəyisə çatdıra bilərik. İdeologiyalar arasındakı mübarizəni aradan qaldırmaq lazımdır. Hər bir partiyanın məqsədi milli maraqlarımıza xidmətdir. Cəmiyyəti bölmək olmaz, hamımız azərbaycanlıyıq. Hər birimiz bu ölkəyə xidmət etməliyik. Aranı qızışdıranlar bu xalqın düşmənidir".

**Ədalət Abdinovun məsələ ilə bağlı mövqeyini almağa cəhd etdik. Lakin mesajlarımızı oxusa da, cavab vermədi.**

❑ Cavanşir ABBASLI




# Şagird imtahandan 5 aldı, dərsə buraxılmadı

## Təhsil Nazirliyi araşdırma aparır, direktor şagirdi liseyə buraxmır...

**Kimya Biologiya Təmayüllü Respublika Liseyinin 11-ci sinif şagirdi Nərmin Mehtilinin işi üzrə Təhsil Nazirliyində sektor müdiri Almaz Əsgərli araşdırma aparır. Yeni tədris ilinin başlamasından 1 həftədən artıq vaxt ötsə də, N.Mehtili dərsə buraxılmır.**

Məsələnin mahiyyəti budur ki, lisey rəhbərliyi əvvəlcə iddia edirdi ki, şagird imtahandan kəsilib və buna görə liseydən xaric olunur. Lakin valideynlərinin təkidi ilə imtahan təşkil olunub və imtahandan şagird 5 alıb. Bundan sonra bu arqument şagird dərs buraxıb arqumenti ilə əvəzlənib.

"Bizə məktəb rəhbərliyi bildirmişdi ki, 5 almağın faydası yoxdu. Bizdə elə bir pedoqoji şura var ki, onun qərarını məktəbin direktoru Kamran müəllimdən başqa Azərbaycanda heç bir qurum dəyişə bilməz. Ümid edirdik ki, nazirlik rəsmisi Almaz Əsgərli müəllimlərlə araşdırmada məktəb rəhbərliyinin tərəfini tutsa da sonda şagirdə kömək etmək niyyətini gizlətməmişdi. Nazirlik rəsmisi bizdən ayrılarkən əlaqə telefonu verdi və bizdə olan bəzi materalları götürdü. Obyektiv araşdırma üçün bizdə olan digər məlumatları da göndərməyimizi məsləhət bildi. Biz üzərimizə düşənləri dərhal etdik. Liseydən çıxarılması üçün planlı şəkildə payıza saxlanılan və məktəb tərəfindən hətta imtahan günü ciddi müqavimətə və təzyiqlərə tuş gələn 11-ci sinif şagirdi olan qızım ailə üzvlərimizin nəzarəti ilə keçirilən imtahanda bəlkə də heç vaxt, heç yerdə baş verməyən ilkə imza atdı. Payız imtahanından hamının gözü qarşısında kimyadan 5 qiymət almaqla bu təhsil ocağının rəhbərliyinin "repetitorluq" mərəzinə düçar olduğunu və buradan böyük məbləğdə maddiyyatın əldə edildiyini ortaya qoydu. Keçən dərs ili bu liseydə Kamran Rəhimovun direktorluğu ilə 3-cü dərs ili olub. İnsan təhsilimizi məhv etmək üçün zamanı fövtə vermək istəmədən dərhal, özü də bütün potensialı ilə işə girişib. Liseyi özünün şəxsi biznesinə çevirib. Ən dəhşətlisi odur ki, bütün bunlar azmış kimi məktəbin direktoru bir neçə il bundan əvvəl Akademik Zərifə Əliyeva adına Liseydə özü ilə bərabər müəllim işləyən qardaşı İmran Rəhimovu da bu tədris ilində yanında işə götürüb. Bu həmin İmran Rəhimovdur ki, müəllimə və məktəbə yaraşmayan ləyaqətsiz hərəkətlərinə görə həmin vaxtlar məktəbin direktoru olmuş və hazırda Bakı Şəhəri üzrə Baş Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva tərəfindən həmin liseydən uzaqlaşdırılmışdı. Ötən dərs ilinin əvvəlindən başlanan müəllim təcavüzü qızımı "repititorluq" mərəzinin qurbanına çevirdi. Perspektivli yeniyetmə qızımı məktəb adına yaraşmayan vasitələrlə yolun başlanğıcında elə vəziyyətə gətirdilər ki, əvvəlcə məktəbdən, sonra onu müdafiə etməyən cəmiyyətdən və hətta həyatdan küsdü" - deyə Nərmin Mehtilinin valideyni Dilarə Mehtiyeva bildirib.

İmtahandan bir neçə gün sonra ünvanlarına N.Mehtilinin liseydən xaric edilməsi ilə bağlı - 6 sentyabr tarixli 90 saylı məktub gəlib. Valideyn həmin məktubun surətini də redaksiyamıza təqdim edib. 15 sentyabrda isə ailəyə N.Mehtilinin təhsil aldığı məktəbdən xaric edilməsilə bağlı Lisey Pedaqoji Şurasının 13.09.2017-ci il tarixli, 1 saylı protokoluna əsasən lisey direkorunun imza və möhürü ilə təsdiq olunmuş 13 saylı əmri təqdim edilib. Valideynin sözlərindən belə aydın olur ki, K.Rəhimov bundan əvvəl Ayxan Baloğlanov, Aynurə Həsənova, Həsən Həsənov, Hüseyn Quluzadə, Rəşad Məmmədov, Elvin Mikayılov, Razi Mirzəzadə, Şamil Şahbazov və bir çox şagirdləri liseydən uzaqlaşdırıb. Təhsil Nazirliyinin bir rəsmisi isə valideynə deyib ki, qızını liseyə bərpa etsələr, həyətdə böyük bir şagird növbəsi yaranacaq: "O, bizə söylədi ki, əgər siz bu məsələnin daha dərindən araşdırılmasını istəyirsinizsə, nazirliyin daxili nəzarət şöbəsinə müraciət edə bilərsiniz. Onlar daha ətraflı araşdırar və ortada olan məlumatlar ekspertizadan rəy alar, onda biz daha ciddi lazımi tədbir görərik. Sizin eyni zamanda məhkəməyə müraciət etmək hüququnuz da var. İndiki halda vəziyyət belədir: direktor şagirdi bu liseydən çıxarıb. Onu bərpa etmək üçün mənim də səlahiyyətim yetmir. Şagirdi isə dərsdən kənarda saxlamaq olmaz. Araşdırma da və məhkəmə də xeyli vaxt istəyir. Nəticəsi də bəlli deyil. Məktəbli hansısa bir məktəbdə dərsinə davam etməlidir".

**Xatırladaq ki, Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov məsələnin araşdırıldığını və nəticəsi haqda mətbuata açıqlama veriləcəyini bildirib.**

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 195 (6810) 23 sentyabr 2017

# Ali məktəblərə yeni qəbul qaydaları - dəyişən tək qaydalarmı olacaq?

## Kamran Əsədov: "Tətbiq olunacaq yenilik repetitorluğa ciddi zərbə vuracaq, orta məktəblərin nüfuzunu qaldıracaq..."

**Azərbaycanda ali məktəbə qəbul qaydaları dəyişdirilir. Belə ki, Dövlət İmtahan Mərkəzində Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, DİM-in digər məsul işçiləri və təhsil nazirinin müavini Ceyhun Bayramovun başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə 2019-cu ildə tətbiqi nəzərdə tutulan tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modelinin yekun müzakirəsi keçirilib və ümumi razılıq əldə edilib. Bu barədə ötən sayımızda məlumat vermişik.**

**Təhsil eksperti Kamran Əsədov** bildirdi ki, buraxılış və qəbul imtahanlarının birləşdirilməsi birincinin çətinlik səviyyəsini artıracaq: "Hazırda ali məktəblərə qəbul olmaq üçün abituriyentlər 4 ixtisas qrupu üzrə həmin ixtisas qrupuna daxil olan 5 fəndən imtahan verirlər. Və əlavə olaraq, buraxılış imtahanlarında 3 fəndən ayrıca imtahanda iştirak edirlər. Bu da 8 fənn edir. Buraxılış və qəbul imtahanlarında təkrar olunan fənlər yalnız bunlardan birində qalacaq. Yəni Azərbaycan dili, riyaziyyat və xXarici dil fənləri ya qəbul yada buraxılış imtahanlarında saxlanılacaq və ya buraxılış imtahanlarında hansısa fənlər çıxarılıb digərləri ilə əvəz olunacaq ki, o fənlər də qəbul imtahanlarında olmayacaq. Bu dəyişiklik 2019-cu ildən tətbiq olunacaq. Əslində DİM-in açıqlamasından belə aydın olur ki, gələn ildən qəbul imtahanlarında daha 5 fənn yox, 6 fəndən imtahan olacaq. Buraxılış imtahanları ilə qəbul imtahanlarını birləşdirmək, buraxılış imtahanında fənlərin sayını artırmaq və ya qəbul imtahanlarında fənlərin sayını azaltmaq sualların çətinlik dərəcəsini artırmaq deməkdir ki, buna, hələ ki bizim reallıq və məktəblərimiz hazır deyillər. Hal-hazırda Azərbaycanda ali məktəblərə qəbul imtahanları fənlərin sayına və çətinlik dərəcəsinə görə çox ağır imtahanlar sırasındadır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü ildə imzaladığı təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında göstərilib ki, təhsil əlçatan olmalıdır. Hesab edirəm ki, bütün ixtisas qruplarında riyaziyyat fənninin olması anlaşılan və faydalı deyil".



**Ekspertin fikrincə, humanitar sahəyə gedən şəxs daha çox oxumaq istədiyi və marağı olduğu istiqamətlər üzrə lazım olan fənlərdən imtahan verməlidir**: "Tarixçinin, hüquqşünasın akademik səviyyədə riyaziyyatdan imtahan verməsi lazım deyil. Bundan əlavə, orta məktəbin nüfuzunun qaldırılması, şagirdlərin buraxılış imtahanlarına və orta məktəb dərslərinə maraqlarının artırılması üçün 2019-cu ildən tətbiq ediləcək yeniliklər mütərəqqi addım olacaq. Ali məktəblərə qəbul sadə olmalıdır. 2019-cu ildən tətbiq olunacaq yenilik repititorluğa ciddi şəkildə zərbə vuracaq və orta məktəblərin nüfuzunu qaldıracaq. Mən hesab edirəm ki, buraxılış imtahanları ilə qəbul imtahanlarının birləşdirilməsi repititorluğun aradan qaldırılmasına kömək edəcək. Lakin şagirdin keçdiyi fənlər üzrə qiymətləndirmə aparılmalı və bunun mexanizmi hazırlanmalıdır".

**K.Əsədov vurğuladı ki, son illərdə keçirilən buraxılış imtahanları və qəbul imtahanlarının nəticələrinin statistik təhsili zamanı ortaya çox fərqli bir mənzərə çıxır**: "Buraxılış imtahanlarının nəticələri ilə qəbul imtahanları arasında həmişə ciddi fərqlər olur. DİM tərəfindən ali məktəblərə qəbul imtahanları zamanı biliyin qiymətləndirilməsinin ayrı-ayrı fənlər üzrə aparılması repititorluğu daha da gücləndirən amillərdəndir. Mənim təklif edəcəyim yeniliklərdən biri də odur ki, humanitar, təbiət elmləri, riyaziyyat-informatika və digər təhsil sahələri üzrə qiymətləndirmənin nəticələri ümumiləşdirilməli və abituriyentə bununla bağlı sertifikat verilməlidir. Abituriyent də hansı sahə üzrə daha yüksək göstəricisi varsa, o sahəyə getməlidir. Doğru deyil ki, şagird buraxılış imtahanı verir, bir ay sonra da qəbul imtahanı başlayır. Buraxılış imtahanlarında minimal tələblərin qoyulduğunu, bu imtahanlarda ən zəif bilənlərin orta və zəif oxuyanlardan seçilməsinin əsas məqsəd olmadığı, qəbul imtahanlarında isə tam əksinə, yaxşı bilən şagirdlərin arasında ən yaxşı bilənlərinin seçilməsinin əsas məqsəd olduğunu qeyd etmək lazımdır".

**Ekspertin fikrincə, buraxılış imtahanları ilə qəbul imtahanlarını birləşdirmək buraxılış imtahanında fənlərin sayını, sualların çətinlik dərəcəsini artırmaq deməkdir**: "Buna, hələ ki bizim reallıqda məktəblərimiz hazır deyil. Bu prosesi həyata keçirmək 12 illik təhsilə keçməmiş və təmayülləşmə prosesini başa çatdırmamış çox çətindir. Bir məsələni qeyd edim ki, buraxılış imtahanları ilə qəbul imtahanlarının birləşdirilməsi fikri yeni məsələ olmayıb, uzun illərdən bəri zaman-zaman gündəmə gətirilən məsələlərdən biridir. Belə bir sistem dünyanın bir çox inkişaf etmiş ölkələrində, o cümlədən keçmiş sovet respublikalarının bəzilərində də neçə illərdən bəri uğurla tətbiq olunur. Hazırda Qazaxıstanda ali məktəblərə qəbul imtahanları ilə orta məktəblərin buraxılış imtahanları vahid formada keçirilir və bu da abituriyentlərin ali məktəblərə qəbul zamanı yükünü azaldır. Bundan başqa, Rusiyada vahid imtahanlar keçirilir. Azərbaycanda vahid imtahana keçid bir neçə ildən sonra mümkün olacaq".

❑ NƏRGİZ

# Beynəlxalq Bankda "unique" əməliyyatı

## ABŞ-da keçirilən 9.89 dollar olan beynəlxalq lotereya bileti Beynəlxalq Bank müştərisinə 16.67 dollara başa gəlib

**Azərbaycanda bank xidmətləri ilə bağlı problemlər zaman-zaman mətbuatın gündəminə çıxarılır və müzakirə olunur. "Yeni Müsavat"a daxil olan növbəti şikayət isə vətəndaşlardan birinin Beynəlxalq Bankdan aldığı "Platinium" VİSA kartı ilə xaricdən alış-veriş zamanı nəzərdə tutulandan daha çox məbləğin çıxılmasıdır.**

| "Unique" (mərc oyunları və s.) və "quasi-cash" (elektron pul kisəsi və s.) tipli əməliyyatlara görə komisyon haqqı[5] | Visa (İnternet, Electron, Classic, Gold, Platinum, Business) və MasterCard (Web-Card, Maestro, Standard, Gold, Platinum, Business) kartları | American Express kartları | Infinite/ MC World Elite, PrimeCard, Güzəşt müddəti (grace period) olan Visa və MasterCard kartları | Əmək haqqı, sosial müavinət, tələbə təqaüdü və ABB-də nağd vəsaitin alınmasına görə komisyon haqqı tutulmayan digər kartlar |
|---|---|---|---|---|
| ABB tərəfindən xidmət olunan ticarət obyektlərində aparılan "unique" (mərc oyunları və s.) və "quasi-cash" (elektron pul kisəsi və s.) əməliyyatlarına görə | 1% (minimum 1.70 AZN) | 1.5% (min. 3.40 AZN) | 1.5% (min. 1.70 AZN) | 0% |
| Azərbaycan ərazisində "Azərikard" MMC tərəfindən xidmət olunan digər bankların ticarət obyektlərində aparılan "unique" (mərc oyunları və s.) və "quasi-cash" (elektron pul kisəsi və s.) əməliyyatlarına görə | 1.5% (min. 5.95 AZN) | 2% (min. 5.95 AZN) | 2% (min. 5.95 AZN) | 1.5% (min. 5.95 AZN) |
| Xaricdə və Azərbaycan ərazisində "Azərikard" MMC tərəfindən xidmət olunmayan ticarət obyektlərində aparılan "unique" (mərc oyunları və s.) və "quasi-cash" (elektron pul kisəsi və s.) əməliyyatlarına görə | 1.5% (min. 8.50 AZN) | 2% (min. 8.50 AZN) | 2% (min. 8.50 AZN) | 1.5% (min. 8.50 AZN) |

[5] Qeyd 1: American Express, VISA Infinite, MasterCard World Elite, VISA Prime Gold, VISA Prime Platinum, habelə güzəşt müddətli VISA Platinum, VISA Gold, VISA Classic, VISA Business, VISA Gold Business və MasterCard Platinum, MasterCard Gold, MasterCard Standard, MasterCard Business tipli kartlar üzrə 6012, 6050 və 6051 MCC kodlarla əməliyyatların aparılmasına icazə verilmir;

Qeyd 2: yuxarıda qeyd olunmuş kartlar istisna olmaqla, bütün VISA, MasterCard, MasterCard Debit və Maestro kartları üzrə:
- Ölkədaxili "unique" və "quasi-cash" (MCC 4829, 6529, 6530, 6534) əməliyyatları üçün 1% (minimum 1 manat ekvivalentində) komisyon haqqı tutulur.
- Ölkədaxili 6050 və 6051 MCC kodlarla aparılan əməliyyatlar üçün komisyon haqq tutulmur.

Şikayətçi redaksiyamıza bildirdi ki, bir müddət öncə kartdakı dollar hesabı ilə ABŞ-da keçirilən beynəlxalq lotereya biletini alıb və onun qarşılığında 9.89 dollar ödəyib. Müştəriyə kartdan 9.89 dollar çıxıldığı barədə bildiriş gəlsə də, təkrar yoxlanma zamanı hesabdan 16.67 dolların əksik olduğu aşkara çıxıb. Halbuki şəkildə göründüyü kimi, SMS bildirişdə müştərinin hesabından məhz 9.89 dollar silindiyi göstərilir. Lakin əvvəlki qalıqla son qalığı müqayisə etdikdə, hesabdan 16.67 dollar çıxıldığı görünür. Xaricdən alınan lotereya bileti üçün ödənişin təxminən ikiqat məbləğə başa gəlməsi müştərini haqlı olaraq narahat edir.

Bəs görəsən, məbləğdən əlavə tutulan vəsait hansı əsasla hesabdan çıxarılıb.

**İqtisadçı ekspert Əkrəm Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Vergi Məcəlləsinin 169.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların iştirakçısı vergi orqanlarında uçotda olmayan şəxs olduqda ödənişi aparan yerli bank tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə ödənilir: "Buna görə də sözügedən ödənişdən yalnız 18% dərəcəsi ilə ƏDV tutula bilər. Hər hansı digər haqq tutula bilməz. Məsələn, burada məzənnə məsələsi yoxdur, çünki hesabdakı vəsait də, ödəniş də ABŞ dollarında ifadə olunub".

Müştəri isə iddia edir ki, çıxılan vəsait lotereya biletinin qiymətinin 18 faizindən daha çoxdur. Təxminən 60-70 faizinə bərabərdir.

Məsələyə aydınlıq gətirmək üçün **Beynəlxalq Bankının mətbuat xidmətinin rəhbəri Yadigar Cəfərli** ilə əlaqə saxladıq. Konkret fakt əsasında məsələni araşdıran mətbuat katibi bildirdi ki, bu cür mərc oyunlarına görə aparılan əməliyyatlar bank terminologiyasında "unique" əməliyyatları adlanır və bu tipli əməliyyatlar, adətən, qumar saytlarında aparılır: "Bu cür saytların riskli olduğunu nəzərə alaraq həmin növ əməliyyatlara banklar tərəfindən əlavə xidmət haqları tətbiq olunur. Azərbaycan Beynəlxalq Bankının mövcud tariflərinə görə, xaricdə və Azərbaycan ərazisində "Azərikard" MMC tərəfindən xidmət olunmayan ticarət obyektlərində aparılan "unique" əməliyyatlarına görə ödənilən vəsaitin 1.5%-həcmində (minimum 8.50 AZN) komisyon haqqı tutulur. Bankın ödəniş kartları üzrə tarif cədvəli ilə bu bölmədən ətraflı tanış olmaq mümkündür: https://www.ibar.az/site/assets/files/1824/az-1.pdf

Bu açıqlamadan belə məlum olur ki, 9.89 dollarlıq lotereya biletinin alınması üçün şikayətçinin hesabından 9.89 dollar, üstəgəl 8.5 AZN- yəni 5 dollar komisyon haqqı, üstəgəl 18 faiz ƏDV, yəni 1.78 dollar çıxılıb.




Təəccüb və təəssüf doğuran məqam isə komisyon haqqının hesabdan çıxarılması ilə bağlı müştəriyə hər hansı bildirişin verilməməsidir.

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında isə bildirdi ki, əgər belə bir komisyon haqqı tutulursa, bununla bağlı həm müştərinin özünə öncədən informasiya verilməli, həm də ictimaiyyətin bu haqda məlumatı olmalıdır: "Azərbaycanda son 1 ildə Mərkəzi bank və Maliyyə Bazarların Nəzarət Palatası hərəsi öz oyun qaydalarını tətbiq etməyə , banklara nağdlaşdırma ilə bağlı, xaricə pul köçürmə ilə bağlı yeni qaydalar tətbiq etməyə başladılar. Banklar da bundan istifadə edib öz tariflərini təyin edirlər. Bir çox banklarda tariflər bir-birindən fərqlidir. Vahid bir oyun qaydası yoxdur. Xaricdən alış-veriş edənlər, konvertasiya edənlər həm konvertasiya haqqı, həm də bank xərcləri şəklində vəsait ödəməli olurlar. Həm də bu onların məlumatı olmadan hesablarından silinir. Normalda müştəri öncədən bilməlidir ki, onun əməkdaşlıq etdiyi bank hansı qaydalarla valyuta əməliyyatları aparır, hansı qaydalarla köçürmələr edir. Bütün bunlar haqqında öncədən məlumat verilməlidir. Lakin bununla bağlı vahid mövqe yoxdur".

**İqtisadçı vurğulayır ki, hazırki dövrdə elektron ticarət daha çox təşviq olunmalıdır:** "Bu şəffaflığı artıran bir amildir, bank köçürmələrinin, ümumilikdə iqtisadiyyatın gün işığına çıxmasına kömək edən bir amildir. Ancaq bu qaydalarla insanları başqa ölkələrin bank sistemindən istifadə etməyə və ya nağd şəkildə köçürmələr etməyə vadar edirlər. Bu doğru yanaşma deyil. Xarici turistlər də Azərbaycanda öz kartları ilə bankomatlardan çıxarış etdikdə hər dəfə bank 1 manat əlavə vəsait tutur.

Mən mərc oyunları ilə bağlı əlavə komisyon haqqı tutulması ilə bağlı bir qanun xatırlamıram. Bu yəqin ki, həmin qurumun daxili qaydalarıdır. Birincisi, əgər bu tətbiq edilirsə, ictimaiyyət bunu bilməlidir. İkincisi də, insanları bu cür onlayn ödəmələrdən çəkindirmək doğru yanaşma deyil. Əgər belə davam etsə, vətəndaşlar xarici ölkələrin banklarında başqa bir hesab açaraq , bu ödənişləri edəcəklər. Bu da yerli bank sisteminə ziyan vuracaq".

❑ N.LİFTİYEVA

Yeni MÜSAVAT

Son səhifə

N 196 (6810) 23 sentyabr 2017




# Qaçqın qız tapdığı pul kisəsini sahibinə qaytardı

**İraqdan olan 16 yaşlı qaçqın Berlin metrosunda14 min avro taparaq onu qanuni sahibinə qaytarıb. Bu barədə lenta.ru saytı "Deutsche Welle" nəşrinə istinadən xəbər verir. Berlinin 75 yaşlı təqaüdçü sakini içi pul dolu çantasını metro qatarında unudub. İtirdiyi çanta barədə dərhal metro əməkdaşlarına məlumat versə də, ona bu məsələ ilə bağlı yardım edən olmayıb.**

Amma aradan iki gün keçmiş polis bölməsinə anası ilə birgə qaçqınlar mərkəzində yaşayan 16 yaşlı bir qız gəlib. O, hüquq-mühafizə orqanları əməkdaşlarına vaqonda tapdığı çantanı təqdim edib. Pullara əl vurulmadığı məlum olub. İndi isə qaçqın qızı bu gözəl davranışına görə pul mükafatı gözləyir. Alman qanunvericiliyinə görə, tapdığı pulu və ya əşyanı qaytaran şəxsə onun dəyərinin 3 faizi qədər pul verilməlidir. Amma əşyanın ictimai nəqliyyatda tapılması halında məbləğ iki dəfə azalır. Bu halda qıza ancaq 210 avro düşə bilər. Bu ilin iyul ayında Berlində yoldan keçən şəxs ağac altında qızıl və 3.500 avro pul tapıb. Qiymətli əşyanın sahibi polisə deyib ki, velosipedini düzəltdiyi vaxt içində dəyərli əşyalar və pul olan qabı kənara qoyub, sonra isə onu orda unudub.

# İnstaqram 10 ayda 250 min dollar qazandırdı

**Avstraliyanın Sidney şəhər sakini İnstaqramda şəxsi hesab açdığı ilk 10 ayda 250 min dollar qazanıb. Lenta.ru saytının xəbərinə görə, o, sözügedən şəbəkədə şəxsən hazırladığı bikini və digər məhsulları reklam edirmiş. 21 yaşlı Nina Perera universiteti bitirəndən sonra şəxsi işini qurmaq istəyib. Avstraliyalı qız daha öncə ofisiant olaraq çalışıb. Ondan bir il sonra isə Neon Model Management adlı agentlik açıb. Bu agentlikdə 120 model və 200 bloqqer çalışıb. Manekenlər arasında yer alan Qabbi Epşteynin isə 1,4 milyon nəfər izləyicisi olub.**

# 100 min avronu unitaza atdılar

**İsveçrənin Jenevrə kantonunda iki qadın 100 min avro məbləğindəki pulu unitaza atıblar. Polis bunu aşkarlayandan sonra araşdırmaya başlayıb. Bu hərəkəti edənlər İspaniyanın iki qadın vətəndaşı olub. Bu haqda Jenevə prokurorluğunun mətbuat katibi Vinsent Deruan məlumat verib. "Unitaza atılan pulun ümumi məbləği 100 min avro olub. İstintaq davam edir. Bu gün üçün məlum olan odur ki, iki ispanqadın bunu edib. Prokurorluq hazırda pulun mənbəyini araşdlrmağa çalışır".**

Mətbuat katibinin dediyinə görə, əgər pulların qanuni yolla əldə edildiyi müəyyənləşsə, ispan qadınlara qarşı hər hansı cəza nəzərdə tutulmayacaq. Belə ki, İsveçrədə pulun bu formada sərf edilməsi cinayət sayılmır və buna görə də hər hansı qanuni məsuliyyət nəzərdə tutulmayıb. "Yox, əgər pullar qeyri-qanuni fəaliyyətlə bağlıdırsa, bu, başqa işdir. Hazırda bu qadınlar cinayətkar sayılmırlar. Onların vəkili də polislərə izahat verib". Bunu da prokurorluqdan deyiblər.



# Piyli qarnı xatırladan çanta hazırladılar

**Britaniyalı dizayner Albert Pyukiz kök qarını xatırladan çanta dizayn edib. Bu çanta daha çox qarın bölgəsinə taxılandır. Onu köynəyin üstündən taxan şəxsin görüntüsü isə əcaib olur. Elə bir təəssürat yaranır ki, adamın qarnı açıqdadır. Pyukiz test nümunəsi hazırlayaraq, onu şalvarının kəmər hissəsinə taxıb və şəklini çəkib. Fotolarda o, "süni qarnından" bir banka pivə, iPhone qulaqcıqları çıxarır.**

Dizayner çantanın beş fərqli formasını düşünüb. Adını "Allen" qoyduğu əsas modellə yanaşı, o, "Derek" (qaradərili variant), "Maqnus" (hədsiz piylənmədən əziyyət çəkən qarın), "Şerman" (tüklü qarın) modelini də hazırlayıb. İdeya sosial şəbəkələrdə, habelə Çində çox populyarlıq qazanıb. Dizaynerin sözlərinə görə, onunla artıq çantanı hazırlayacaq kampaniya əlaqə saxlayıb. Bundan başqa, o, Kickstarter təşkilatına yardım etmək üçün pul yığmağı da planlaşdırır.

Aprel ayında isə məlum oldu ki, yaşlı çin qadın dəyəri 1000 dollar olan Louis Vuitton çantasında diri balıq və başqa məhsullar daşıyır.




**QOÇ** - O qədər də ürəkaçan olmayan maddi durumunuzu dirçəltmək üçün müəyyən imkanlar qazanacaqsınız. Büdcənizi artırmaq istiqamətində dəstək ala bilərsiniz. Kobudluğa yol verməyin.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu amil daha çox sevgi zəminində reallaşacaq. İş yerində isə həmkarlarınızla xırda mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

**ƏKİZLƏR** - Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki iş səhhətinizə mənfi təsir göstərə bilər. Bu gün cinsi yaxınlıq, ağır fiziki işlərə girişmək sizin üçün yolverilməzdir.

**XƏRÇƏNG** - Hər mənada uğurlu təqvimdir. İstər şəxsi büdcəni artırmaq istiqamətində, istərsə də işgüzar sövdələşmələrdə irəliləyişləriniz mümkündür. Belə bir gündə falçıya getməyin.

**ŞİR** - Bu gün istirahət etmək fikriniz çətin ki, baş tuta. Əksinə, ikitərəfli sövdələşmələrə və yeni işlərə başlamaq lazımdır. Büdcənizdə artım da ola bilər. Mübahisələrdən uzaq qaçın.

**QIZ** - Astroloji göstəricilər günün birinci yarısını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı müddətdə isə ətrafınızda olanların rəğbətini qazanacaqsınız.

**TƏRƏZİ** - Olduqca uğurlu təqvimdir. Ulduzlar bir tərəfdən əlverişli təkliflər alacağınızı, digər tərəfdənsə maliyyə uğurlarına nail olacağınızı bildirir. Hər mənada nikbin olmağa əsas var.

**ƏQRƏB** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Çünki həmin vaxt sizə mənfi enerjili Ayın təsiri artacaq.

**OXATAN** - Saat 15-ə qədər hər bir görüşü təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Özünə qapılmağa da dəyməz. Günün ikinci yarısını gözləyin.

**OĞLAQ** - Deyəsən, Göy qübbəsi əzablarınızı görüb sizə güzəştə getmək fikrinə düşüb. Bu səbəbdən də əksər məsələlərdə yardımçınız olmaqdadır. Səfərə çıxmaq və varlanmaq ehtimalınız da var.

**SUTÖKƏN** - Ulduzlar yalnız qarşılıqlı əlaqələr zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu baxımdan gəzintiyə çıxmaq, qonaq getmək səmərəlidir. Riskli işlərdən yayının.

**BALIQLAR** - Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparmalısınız. Deyilən hər sözə ciddi yanaşmayın. Yaxşı olar ki, bütün gücünüzü fəaliyyətə yönəldəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Toy gecəsi gəlin öldü, bəy türməyə girdi

**Bugünlərdə Rusiyanın Volqoqrad vilayətində bəy toydan dərhal sonra gəlini xəyanətdə ittiham edərək yandırıb. 27 yaşlı qadını yanıq xəsarətləri ilə xəstəxanaya yerləşdiriblər. Onun bədəninin 80%-i yanıb. Həkimlər onu xilas edə bilməyiblər. Polis artıq hadisəni araşdırır. Hadisəni törədən şəxs saxlanılıb. 30 yaşlı kişi əvvəllər də qətlə görə cəza çəkib. Toy gecəsində kişi həyat yoldaşının ona xəyanət etdiyindən şübhələnib. Gəlinin üzərinə spirt tökərək yandırıb. Rusiya mətbuatının yazdığına görə, toydan dərhal sonra sərxoş vəziyyətdə olan bəy yatıb. Bəyin bu hərəkəti yeni gəlinin xoşuna gəlməyib. Bu səbəbdən də gecəni başqa bir kişinin yanında keçirib. Geri qayıdanda isə hər şeyi ərinə danışıb. Baş vermiş xəyanət isə yuxudan ayılan əri qəzəbləndirib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100